QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 156 (6356) 1 sentyabr 2021-ci il **Qiyməti 40 qəpik**

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.



## Mehriban Əliyeva medal qazanan idmançılarımızı təbrik edib

**Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "İnstagram" hesabında bu gün Yay Paralimpiya oyunlarında medal qazanan idmançıları təbrik edib. SİA-nın məlumatına görə, paylaşımda deyilir:**

"Bu günədək olan nəticələrə əsasən Azərbaycanın 10 qızıl, 1 gümüş və 4 bürünc medalı var! Bugünkü qaliblərimizi - daha bir qızıl medal qazanmış Raman Salehi, gümüş medal sahibi Lamiyə Vəliyevanı və bürünc mükafatçı Səid Nəcəfzadəni səmimi-qəlbdən təbrik edirəm! Milli yığmamıza yeni qələbələr və nailiyyətlər arzulayıram!".

## Lavrov Ermənistan-Azərbaycan sərhədində vəziyyətin uzunmüddətli nizamlanmasının şərtlərini açıqlayıb



**"Ermənistan-Azərbaycan sərhədində vəziyyət ətrafında fikir mübadiləsi apardıq. Hesab edirik ki, bütün...**

*Bax 5*

# Qətiyyətin və milli dəyanətin təntənəsi!

**İlham Əliyev: "Əziz Şuşa, biz səni dirçəldəcəyik! Bu gün eyni sözləri təkrarlayıram. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!"**



*Bax 8*

## COVID-19 pasportu bu yolla yoxlanılacaq



*Bax 12*

## Ya işinizi görün, ya da gedin!

**Belə görünməyə başlayır ki, Azərbaycanın Qarabağa sülhməramlı kontingentini dəvət...**



*Bax 13*

## Uşaqların həddindən artıq smartfondan istifadə etməsi nə qədər doğrudur?

**Araşdırmalara görə, smartfonların gündəlik həyatda və insanlararası münasibətlərdə funksionallığa təsir edən...**



*Bax 6*





## Xankəndi ətrafında antiterror əməliyyatı başlayır - Türkiyənin Qarabağla bağlı yeni planı işə düşür



## "Davamlı İnkişaf Məktəbi" layihəsi çərçivəsində "Qlobal hədəflərə nail olunmasında gənclər siyasətinin rolu" mövzusunda seminar keçirilib

*Bax 4*



## Azərbaycan və İran XİN rəhbərləri arasında telefon danışığı olub

**Avqustun 31-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun...**

*Bax 5*



## "Yeni müharibə Ermənistanın dünya xəritəsindən yox olmasına səbəb ola bilər"

**Rusiyalı hərbi ekspert, jurnalist, ehtiyatda olan polkovnik Mixail...**

*Bax 15*

## DİN toylarla bağlı qaydaları açıqladı



*Bax 11*

## Əli Kərimlinin yalanlarının kölgəsinə sığınanlar....



*Bax 14*

## Ronaldo "Mançester Yunayted"lə müqavilə imzalayıb



*Bax 16*

# İlham Əliyev xarizması və xalq sevgisi vahidlik simvoluna çevrilib!

## Müzəffər Ali Baş Komandan: "Bir dənə də olsun vəd yerinə yetirilməmiş qalmadı və İkinci Qarabağ müharibəsindəki parlaq Qələbəmiz buna əyani sübutdur"

**Qarabağda 44 gün davam etmiş Vətən müharibəsində əldə edilən şanlı zəfərdən sonra Azərbaycan dövləti bu savaşda iştirak etmiş müharibə iştirakçılarına, qazilərə və şəhid ailələrinə öz qayğısını və dəstəyini əsirgəmir.**

Məhz Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin bilavasitə göstərişləri və tapşırıqları əsasında onlar mənzillərlə, avtomobillərlə təmin olunur, habelə sosial şəraitlərinin təminatı istiqamətində davamlı, arcıdıl işlər həyata keçirilir, digər layihələr reallaşdırılır. Bu faktor isə həm də onu göstərir ki, istər Birinci, istərsə də İkinci Qarabağ müharibələrində iştirak etmiş qazilərimizə, eləcə də həyatlarını Vətən uğrunda fəda etmiş şəhidlərimizin ailələrinə bundan sonra da dövlət qayğısı göstəriləcək.



Bu günlərdə Abşeronda istifadəyə verilən kompeks binaların mənzil açarlarının, eləcə də avtomobillərin təqdimatı mərasimində Prezident İlham Əliyev bir sıra istiqamətlərə toxunaraq qeyd edib ki, böyük vəsait tələb edən bütün bu işləri Azərbaycan öz hesabına edir, heç kimə möhtac deyil, heç kimdən yardım istəmir. O cümlədən, azad edilmiş torpaqlarda bu gün bütün bərpa işləri Azərbaycanın vəsaiti hesabına icra olunur.

**"Bir çoxları üçün bu, çox gözlənilməz oldu və bəziləri təəccüb edirlər ki, biz bu işləri belə yüksək templərlə görürük"**

Dövlət başçımız qazanılan qələbənin tarixi zəfər olduğunu vurğulamaqla onu da bildirib ki, artıq işğaldan azad edilmiş torpaqlarımızda da nəhəng işlər vüsət alıb, Qarabağ və Şərqi Zəngəzur istiqamətində sürətli bərpa, inşaat işlərinə start verilib.



"Biz Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək üçün xüsusi proqram qəbul etdik. Bu proqram bir neçə ili əhatə edir və birinci il - 2021-ci il üçün proqram icra olunur. Bu gün o bölgələrdə gedən quruculuq-abadlıq işləri göz önündədir. Bir çoxları üçün bu, çox gözlənilməz oldu və bəziləri təəccüb edirlər ki, biz bu işləri belə yüksək templərlə görürük. Əlbəttə, burada təkcə maliyyə vəsaiti kifayət etməz. Gərək bu genişmiqyaslı layihələri icra etmək üçün texniki imkanlar olsun, kadr potensialı olsun, daxili resurslar olsun. Biz bütün bu gücləri səfərbər etmişik və bu gün erməni vəhşiliyinin fəsadlarını aradan qaldırırıq", deyə cənab Prezident vurğulayıb.

**"Bu günə qədər verilən bütün vədlər həyatda öz əksini tapdı"**

İlham Əliyev öz praqmatik və qətiyyətli fəaliyyəti ilə hər zaman verdiyi vədlərini yerinə yetirən və qarşıya qoyulan məqsədləri gerçəkləşdirən lider olaraq adını qızıl hərflərlə Azərbaycanın tarixinə yazıb. Bu baxımdan, görüş əsnasında o xatırladıb ki, Qarabağdakı parlaq qələbə də bunun bariz sübutudur. SİTAT: "Mən demişdim, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Biz bunu edəcəyik. Necə ki, bu günə qədər verilən bütün vədlər həyatda öz əksini tapdı, bir dənə də olsun vəd yerinə yetirilməmiş qalmadı və İkinci Qarabağ müharibəsindəki parlaq Qələbəmiz buna əyani sübutdur".

O da əbəs deyil ki, cənab Prezident əldə edilən zəfərin təməlində güclü Azərbaycan Ordusunun, şücaətkar, fədakar, igid, mərd əsgər və zabitlərinin olduğunu hər zaman xüsusilə vurğulayır və Vətən, ərazi bütövlüyü uğrunda qorxmadan, çəkinmədən, hər bir təhlükəni gözə alaraq ölümə getdiklərini bildirir.

**"Hər bir şəhidin həyatı təkrarolunmazdır"**

"Şəhidlərimizin əziz xatirəsi hər birimiz üçün müqəddəsdir. Biz əməliyyatları planlaşdıranda, ilk növbədə, mümkün olan itkilər haqqında düşünürdük və müqayisə apardıqda Azərbaycan məhz buna görə az itki verib. Hər bir şəhidin həyatı təkrarolunmazdır, hər bir şəhidin həlak olması onun yaxınları, qohumları üçün faciədir, böyük bir dərddir", - deyə dövlət başçımız əlavə edib.

Bütün bunlar isə bir daha təsdiq edir ki, Azərbaycan dövləti və xalqı inamla irəliyə doğru addımlayır və qarşısına çıxan istənilən səddi aşmaq, qalib gəlmək gücündə və zəmindədir. Belə ki, Azərbaycan xalqının lideri cənab İlham Əliyev xarizması ilə xalq sevgisi vahidlik simvoluna çevrilib və bu vahidliyi heç bir daxili, xarici düşmən qüvvələr poza bilməz.

**Rövşən RƏSULOV**

*Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin (FHN) əməkdaşlarının təltif edilməsi haqqında Sərəncam imzalayıb Sərəncamla Türkiyə Respublikasında meşə yanğınlarının söndürülməsində və fəlakət zonasında zəruri axtarış-xilasetmə əməliyyatlarının yerinə yetirilməsində fərqləndiklərinə görə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin bir qrup əməkdaşı təltif ediliblər.

# Ərəbdilli KİV-lər: Prezident İlham Əliyev tarixə siyasi arenada və döyüş meydanında Zəfər qazanan görkəmli siyasətçi kimi düşüb

**Prezident İlham Əliyev tarixə siyasi arenada və döyüş meydanında Zəfər qazanan görkəmli siyasətçi kimi düşüb.**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Misirin "Aldiplomasy, "Əl Dövlə", Əlcəzairin "Əl Hərir", həmçinin İraq, İordaniya, Küveyt KİV-lərində dərc olunmuş şərqşünas Həşim Məmmədovun "Qarabağ fatehi və onun dəmir yumruğu" sərlövhəli məqaləsində yer alıb.

Müəllif qeyd edib ki, işğalçı Ermənistanla 44 günlük müharibəni Qələbə ilə başa çatdıran Azərbaycan işğaldan azad etdiyi ərazilərində quruculuq işlərinə start verib. Bu şanlı Zəfərin əsas amili isə xalqın və hakimiyyətin birliyidir. Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev işğaldan azad olunan rayonlarda Azərbaycan bayrağını qaldırıb, torpaqların düşmən tapdağından qurtulması missiyasının uğurla başa çatdığını, ermənilərin viran qoyduqları şəhər, kənd və qəsəbələrin tezliklə cənnətə çevriləcəyini bəyan edib.

Məqalədə bildirilir ki, müharibə zamanı minlərlə gənc könüllü olaraq torpaqlarımızın erməni işğalından azad edilməsi uğrunda döyüşə getməyə can atıb. Onlar inanırdılar ki, hər zaman xalqa arxalandığını söyləyən Ali Baş Komandanın müdrik siyasəti nəticəsində işğal olunan torpaqlarımız geri alınacaq. Azərbaycan Ordusunun şanlı Zəfəri bütün dünyada, o cümlədən İslam aləmində də böyük əks-səda doğurdu.

Yazının sonunda vurğulanıb: "İlham Əliyev Azərbaycan xalqının xilaskarı, ümummilli lider Heydər Əliyevin müdrik siyasətini uğurla davam etdirdi və torpaqların işğaldan azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün təmini missiyasını müvəffəqiyyətlə başa çatdırdı".



# Azərbaycanla-BMT əlaqələri yüksələn xətlə inkişaf edir



## Prezident İlham Əliyev: “Azərbaycan həmişə BMT-nin fəal üzvü olmuşdur”

**“Azərbaycan həmişə BMT-nin fəal üzvü olmuşdur. Biz təqribən on il bundan əvvəl beynəlxalq birliyin böyük dəstəyi ilə hətta Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdik. 155 ölkə bizim namizədliyimizi dəstəkləmişdir və bu da Azərbaycanın beynəlxalq nüfuzunu və fəal xarici siyasətini nümayiş etdirirdi”.**

Bunu Prezident İlham Əliyev avqustun 24-də BMT-nin ölkəmizdə yeni təyin olunmuş rezident əlaqələndiricisi xanım Vladanka Andreyevanı qəbul edərkən deyib.

Dövlət başçısı onu da bildirib ki, iki illik sədrlik dövründə biz mühüm məsələlərlə bağlı təşəbbüslər irəli sürdük və beynəlxalq birliyin gündəliyində duran vacib qlobal məsələlərə toxunduq: “İndi isə BMT-dən sonra ən böyük beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatının sədri kimi biz beynəlxalq münasibətlər sistemində mühüm rol oynayırıq və BMT baş katibinin təşəbbüslərinə dəstək oluruq, xüsusilə COVID ilə mübarizə sahəsində. Bildiyiniz kimi, ötən ilin sonunda Qoşulmama Hərəkatının sədri kimi bizim təşəbbüsümüzlə koronavirusa həsr olunmuş BMT Baş Assambleyasının xüsusi sessiyası keçirilmişdir və bu da bu xəstəliyə qarşı bizim qlobal mübarizəyə bir töhfəmiz idi. Həmçinin milli qisimdə 30-dan çox ölkəyə yardım göstərmişik. Maliyyə, humanitar yardımı göstərmişik, biz dəstəyə ehtiyacı olan ölkələrlə peyvəndləri paylaşmışdıq. Bu, bizim beynəlxalq birliyin məsul üzvü kimi gündəliyimizi nümayiş etdirir”.

### “Ermənistan yenə etiraz edir, buna görə də UNESCO missiyası gecikir”

“İndi müharibə bitib, münaqişə həll olunub, bu baş verənlər haqda danışılası heç bir məsələ qalmayıb. Biz artıq gələcəyə baxmalıyıq və hazırda bizim əsas narahatlığımız dağıdılmış, tamamilə viran qoyulmuş ərazilərin bərpasıdır”.

Prezident İlham Əliyev onu da bildirib ki, biz artıq gələcəyə baxmalıyıq və hazırda bizim əsas narahatlığımız dağıdılmış, tamamilə viran qoyulmuş ərazilərin bərpasıdır: “Əlbəttə ki, biz Birləşmiş Millətlər Təşkilatı ilə bu məsələlərdə, humanitar vəziyyətlə bağlı məsələlərdə, işğaldan azad olunmuş ərazilərin bərpasına dair planlarımızla bağlı gələcək əməkdaşlığa ümid edirik. Sözsüz ki, bizim BMT institutları ilə daha çox qarşılıqlı əlaqəyə ehtiyacımız var. Bildiyiniz kimi, UNESCO ilə də təmasdayıq. Biz UNESCO-nu, demək olar ki, 30 ilə yaxındır gözləyirik”.

### “Müharibə bitdikdən sonra UNESCO tərəfindən onların gəlmək istədiyinə dair siqnallar aldıq”

Dövlət başçısı bir daha bildirdi ki, bir neçə il bundan öncə hələ işğal dövründə, UNESCO-nu buraya səfər etməyə və bizim ərazilərdə nələrin törədildiyini görməyə dəvət etmişdik: “Bilmirəm bunu bilirsiniz, ya yox, biz bir neçə il bundan öncə hələ işğal dövründə, UNESCO-nu buraya səfər etməyə və bizim ərazilərdə nələrin törədildiyini görməyə dəvət etmişdik. Çünki ATƏT-in Minsk qrupu işğal olunmuş ərazilərə artıq iki faktaraşdırıcı missiya göndərmişdi. Biz onlardan yenidən bir missiya göndərməyi xahiş etdik, lakin onlar göndərmədilər. Biz UNESCO-dan tarixi abidələrimizə erməni təcavüzkarları tərəfindən dəymiş ziyanı gəlib görməyi xahiş edirdik, lakin onlar imtina etdilər. UNESCO rəsmiləri dedilər ki, UNESCO siyasi məsələlərə qarışmır. Lakin, müharibə bitdikdən sonra UNESCO tərəfindən onların gəlmək istədiyinə dair siqnallar aldıq. Əlbəttə, biz öz təəccübümüzü bildirdik. Çünki demək olar, 30 il idi ki, biz onları çağıranda gəlmirdilər. Müharibədən sonra isə gəlməyə qərar verdilər. Buna görə biz buna razılaşdıq və mənim də bildiyim qədər son məlumat belə idi ki, missiya artıq yaradılıb, amma indi Ermənistan yenə etiraz edir. Buna görə yenə də missiya gecikir”.

### “Biz bütün beynəlxalq alətlərdən istifadə edərək, öz ərazi bütövlüyümüzü bərpa etdik”

Dövlət başçısı BMT-nin ölkəmizdə yeni təyin olunmuş rezident əlaqələndiricisi xanım Vladanka Andreyevanı qəbul edərkən bildirib ki, imkanlarımız və potensialımız daxilində biz sülhə və təhlükəsizliyə töhfə verməyə çalışırıq: “BMT ilə bizim fəal qarşılıqlı əlaqəmiz Ermənistanın təcavüzü nəticəsində başlamışdır və 1993-cü ildə Təhlükəsizlik Şurasının məşhur qətnamələri qəbul olunmuşdur. Bu, çox müsbət addım idi, erməni təcavüzünə toxunularaq bizə dəstəyin çox ümidverici bir jesti idi. Bizim beynəlxalq səviyyədə tanınan ərazilərimizdən erməni qoşunlarının dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələbi Təhlükəsizlik Şurasının çox mühüm siyasi bir jesti idi”.

Prezident İlham Əliyev onu da bildirib ki, Təhlükəsizlik Şurasının qətnamələr icra olunmamışdır: “Lakin əfsuslar olsun ki, bu qətnamələr icra olunmamışdır və yəqin sizin də bildiyiniz kimi, Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizminin olmaması məsələsini mən şəxsən dəfələrlə qaldırmışam. Bəzi hallarda qətnamələr qısa müddət ərzində icra olunur, lakin bizə gəldikdə onlar beynəlxalq iştirakçılar tərəfindən ümumiyyətlə icra olunmamışdır”.

### “28 il ərzində Minsk qrupu çox imkanları əldən verib”

Dövlət başçısı onu da bildirib ki, 28 il ərzində Minsk qrupu çox imkanları əldən verib: “Xüsusilə bizi narahat edən və Azərbaycan cəmiyyətinin anlamaqda çətinlik çəkdiyi məsələ o idi ki, bu qətnamələri qəbul edənlər, Təhlükəsizlik Şurasının daimi üzvü olan beş ölkədən üçü ATƏT-in Minsk qrupuna həmsədr olan və hələ də həmsədrlik edən ölkələrdir. Onlar özləri bu qətnamələri qəbul etmişdir. Bu qətnamələrin həyata keçirilməsinə imkan yaratmaq üçün onların mandatı var idi. Lakin, əfsuslar olsun ki, 28 il ərzində Minsk qrupu çox imkanları əldən verib. Bir çox hallarda mən Ermənistana qarşı sanksiyaların tətbiq edilməsi məsələsini qaldırmışdım. Çünki düşünürdüm ki, bu, toqquşmanın, müharibənin qarşısının alınması üçün bir yol ola bilərdi”.

Prezident İlham Əliyev Azərbaycanın məsələni sülh yolu ilə həll etmək istədiyini qeyd edərək bildirib: “Ötən il, müharibədən cəmi bir neçə gün əvvəl, Baş Assambleyada çıxış edərkən mən beynəlxalq birliyi xəbərdar edərək, Ermənistanın müharibəyə hazırlaşdığını dedim. Bu, təbliğat deyildi, Ermənistanın müharibədən əvvəlki aylar ərzində davranışının real təhlilinin nəticəsi idi. Əfsuslar olsun ki, mən haqlı çıxdım. Ona görə də, əgər Ermənistana qarşı vaxtında sanksiyalar tətbiq edilsəydi, əgər Minsk qrupunun həmsədrləri, dünyanın üç aparıcı ölkəsi potensialının 5 faizini Ermənistanı öz işğalçı qüvvələrini geri çəkməyə inandırmağa və ya məcbur etməyə istifadə etsəydi, müharibə baş verməzdi”.

### “Müharibəyə görə məsuliyyət yalnız Ermənistanın üzərində deyil, həmçinin onu beynəlxalq hüquqa riayət etməyə məcbur edə bilməyən və ya bunu etmək istəməyənlərin üzərinə düşür”

“Odur ki, müharibəyə görə məsuliyyət yalnız Ermənistanın üzərində deyil, həmçinin onu beynəlxalq hüquqa riayət etməyə məcbur edə bilməyən və ya bunu etmək istəməyənlərin üzərinə düşür. Nəticədə Azərbaycan bu qətnamələri beynəlxalq hüququn normaları çərçivəsində özü həyata keçirdi. Biz ədaləti, beynəlxalq hüququn normalarını bərpa etdik. Biz Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrini özümüz yerinə yetirdik. Biz BMT-nin Nizamnaməsini rəhbər tutaraq hərəkət etdik. 51-ci maddə hər bir ölkənin özünümüdafiə hüququnu tanıyır. Beləliklə, biz bütün beynəlxalq alətlərdən istifadə edərək, öz ərazi bütövlüyümüzü bərpa etdik”.

Şübhə yoxdur ki, BMT ilə Azərbaycanın əməkdaşlığı 29 ildir ki, yüksələn xətt üzrə inkişaf edir və güclənir. Bu, həm bu nüfuzlu beynəlxalq təşkilat üçün, həm də Azərbaycan üçün faydalıdır. Azərbaycan artıq dünyanın nüfuzlu təşkilatlarında öz yeri, rolu və müstəqil mövqeyi olan ölkə kimi qəbul edilir.

Bir sözlə, istər iyunun 23-də BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinosun ölkəmizdə olması, onun ardınca BMT-nin Azərbaycan Respublikasına rezident əlaqələndirici vəzifəsinə yeni təyinat bir daha BMT ilə Azərbaycanın əməkdaşlığının 29 il ərzində yüksələn xətt üzrə gücləndiyini, inkişaf etdiyini və bundan sonra da inkişaf edəcəyinin reallığıdır.

***RƏFİQƏ HÜSEYNOVA***

# “Davamlı İnkişaf Məktəbi” layihəsi çərçivəsində “Qlobal hədəflərə nail olunmasında gənclər siyasətinin rolu” mövzusunda seminar keçirilib

**Avqustun 31-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın Gənclər Birliyinin “Davamlı İnkişaf Məktəbi” layihəsi çərçivəsində “Qlobal hədəflərə nail olunmasında gənclər siyasətinin rolu” mövzusunda növbəti seminar keçirilib.**



Tədbiri açan YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov seminarda iştirak edən gəncləri salamlayıb, həmçinin mövzunun aktuallığından bəhs edib. Ölkəmizin ictimai-siyasi həyatında gənclərin fəal iştirakına toxunan YAP Gənclər Birliyinin sədri bildirib ki, həyata keçirilən bu layihə gənclərin inkişafında əsaslı rol oynayacaq.





Daha sonra tədbirdə çıxış edən Milli Məclisin deputatı Məzahir Əfəndiyev ölkəmizdə uğurlu gənclər siyasətinin həyata keçirildiyini diqqətə çatdırıb. M.Əfəndiyev bildirib ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu bu siyasi kurs gənclərimizin milli mənəvi dəyərlər kontekstində, sağlam və intellektual inkişafını şərtləndirib. Dövlətin hərtərəfli qayğısı ilə əhatə olunan gənclərimiz cəmiyyətin ən aparıcı təbəqəsi kimi çıxış edir və onların fəaliyyəti Azərbaycanın dinamik inkişafına əhəmiyyətli töhfələr verir: “Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdışı gənclərimizin gələcəyinin uğurlu inkişafında yeni bir səhifə açdı. 1994-cü ildə Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması, 1996, 1999 və 2003-cü illərdə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan gənclərinin forumlarının keçirilməsi və 1997-ci il fevralın 1-də ümummilli lider Heydər Əliyev tərəfindən “2 fevral - Azərbaycan Gəncləri Günü elan edilməsi haqqında” Sərəncamın imzalanması Azərbaycanda dövlət gənclər siyasətinin inkişafında yeni mərhələnin başlanğıcı oldu”.

Milli Məclisin deputatı onu da qeyd edib ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasəti Prezident İlham Əliyev tərəfindən inamla və ardıcıllıqla davam etdirilir. Gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədi ilə mühüm Dövlət Proqramları icra olunub, “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”nın təsdiq edilməsi haqqında Sərəncamın imzalanması bu kontekstdə müstəsna əhəmiyyət kəsb edir. “Gənclər siyasəti çərçivəsində Gənclər Fondunun yaradılması, gənclərin və gənclər təşkilatlarının bacarıq, təşəbbüs və yaradıcılıqlarının üzə çıxarılması, onların hökumət tərəfindən dəstəklənməsi, Gənclər üçün Prezident Mükafatının təsis olunması,



ölkə gənclərinin beynəlxalq arenada təmsilçiliyinin yüksəlməsi, respublikanın əksər rayon və şəhərlərində gənclərin istifadəsinə verilən gənclər mərkəzlərinin və gənclər evlərinin tikilməsi səmərəli nəticələrin əldə olunmasını şərtləndirib”, - deyən M.Əfəndiyev onu da əlavə edib ki, ölkəmizdə geniş könüllük hərəkatının təşəkkül tapması da məhz Prezident İlham Əliyevin adı ilə bağlıdır. 2009-cu ildə “Könüllülük fəaliyyəti haqqında” qanunun qəbul edilməsinin ardından 2013-cü ildə ASAN Könüllüləri Təşkilatının yaranması bu istiqamətdə fəaliyyətin daha da genişlənməsinə yol açdı. Tədbirdə gəncləri maraqlandıran suallar cavablandırılıb.

# YAP Cəbrayıl rayon təşkilatının X hesabat konfransı keçirilib

**Avqustun 31-də Yeni Azərbaycan Partiyası Cəbrayıl rayon təşkilatının videoformatda X hesabat konfransı keçirilib. Əvvəlcə müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**




Konfransın gündəliyi təsdiqləndikdən sonra YAP Cəbrayıl rayon təşkilatının sədri Arif Fərzəliyev hesabat məruzəsi ilə çıxış edib. Bildirib ki, Ümummilli Liderimizin yaradıcısı olduğu, dünənin, bu günün və gələcəyin partiyası kimi dəyərləndirdiyi, hazırda ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni hədəflərə doğru inamla irəliləyən Yeni Azərbaycan Partiyası cəmiyyətin avanqard qüvvəsi kimi nüfuzunu artırıb, sıralarını kəmiyyət və keyfiyyət baxımından zənginləşdirib. Yeni Azərbaycan Partiyası ölkəmizin ictimai-siyasi, iqtisadi, sosial və mədəni həyatında fəal iştirak edir. Partiyanın hər bir üzvü ulu öndər Heydər Əliyev ideyalarının, dövlət başçısı cənab İlham Əliyevin təkmil islahatları sayəsində müasirləşən, yeniləşən, hər gün yeni zəfərlərə imza atan Azərbaycanın uğurlarının təbliğatçılarıdırlar.











A.Fərzəliyev qeyd edib ki, hazırda rayon təşkilatının 39 ərazi ilk partiya təşkilatı fəaliyyət göstərir. Təşkilatın 3856 üzvü var. Onlardan 1702 nəfəri gənclər, 1574 nəfəri isə qadınlardır.

Sonra YAP Cəbrayıl rayon təşkilatının Nəzarət Təftiş Qrupunun üzvü Müşviq Əliyevin hesabat məruzəsi dinlənilib.





Müzakirələr zamanı YAP Cəbrayil rayon təşkilatı İdarə Heyətinin üzvü, Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov, Milli Məclisin deputatı Ceyhun Məmmədov, rayon təşkilatı Gənclər Birliyinin sədri Əli Məmmədli, rayon təşkilatı Qadınlar Şurasının üzvü, M.Mehdizadə adına tam orta məktəbin direktoru Şəlalə Qasımlı çıxış edərək rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyətinə münasibətlərini bildiriblər.



Konfransda çıxış edən Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, bu gün müstəqil Azərbaycan özünün şanlı Zəfər tarixini yaşayır: “Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində yeni tarix yazdı. O tarixi ki xalqımız onu 30 il səbirsizliklə gözləyib, heç zaman ümidini itirməyib. Xalqımız tam əmin idi ki, dövlətimizin qətiyyəti sayəsində torpaqlarımız işğaldan azad ediləcək. Cənab İlham Əliyevin bu gün qalib ölkənin Prezidenti kimi işğaldan azad edilmiş ərazilərimizə səfərləri harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlını qürurlandırır, sevinc hissi yaşadır”.

Çıxışını növbəti konfransın Cəbrayılda keçirilməsi arzusu ilə tamamlayan Ə.Tağıyev rayon təşkilatının fəaliyyətinə uğurlar diləyib.

Qeyd edək ki, YAP Cəbrayıl rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

# Ermənistanın iflasdan çıxış yolu Azərbaycanın təklif etdiyi “3+3” formatına qoşulmaqdan keçir

**Azərbaycan məğlub Ermənistan istisna olmaqla qonşu ölkələrlə hər zaman əməkdaşlıqda maraqlı olub və indiyə qədər müxtəlif layihələr həyata keçirib. Ölkəmizin Türkiyə, Rusiya, İran və Gürcüstanla birlikdə reallaşdırdığı müxtəlif beynəlxalq layihələr ilk növbədə Azərbaycanın iqtisadi qüdrətinin göstəricisidir. Məhz bu layihələr iqtisadiyyatımızın sürətli inkişafında mühüm rol oynayıb.**



Prezident İlham Əliyev müharibədən sonrakı bütün çıxışlarında bəyan edir ki, regionun inkişafı naminə icra ediləcək hər bir layihə özündən sonra digər layihənin reallaşmasına real zəmin yarada bilər. Ona görə də ilk növbədə Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalı və sülh müqaviləsinə imza atmalıdır. Belə olan təqdirdə “3+3” formatı reallaşa bilər. Bu formatın reallaşması ilk növbədə Ermənistanın düşdüyü acınacaqlı durumdan qurtuluşu ola bilər.

Prezident İlham Əliyev də vurğulayır ki, Ermənistan Azərbaycanla hesablaşarsa, yeni formatın yaranması ilə bağlı danışıqlar aparmaq olar. Bu gün artıq nikbinliyə səbəb olan digər amil odur ki, qonşu dövlətlər də Azərbaycanla eyni mövqeni bölüşür. Regionun gələcək inkişafı, inteqrasiya layihələrinin icrası ilə bağlı fikir ayrılığı yoxdur. Ölkəmizin başçısı deyir ki, əgər təkcə Zəngəzur dəhlizinə fikir versək, bunun Rusiya, Azərbaycan, Türkiyə, İran, Ermənistan və Gürcüstanın maraqlarına cavab verdiyini aydın şəkildə görə bilərik. Yəni bu dəhlizin yaradılması, işə düşməsi ilə Avrasiyanın yeni bir nəqliyyat damarı açıla bilər.

Prezident bildirir ki, əgər Ermənistan buna hazırdırsa, əgər Azərbaycanın bütün dünya tərəfindən qəbul edilən ərazi bütövlüyünü tanımağa hazırdırsa, onda, əlbəttə, bölgəyə uzunmüddətli sülh gələcək. Buna nail olmaq üçün indi konkret təkliflər də masa üzərindədir. Yolların açılması, Zəngəzur

## Zəngəzur dəhlizi region üçün yeni həyat yolu ola bilər



dəhlizinin yaradılması, bütün ticarət əlaqələrinin bərpası, Cənubi Qafqazda uzun fasilədən sonra sülhün təmin edilməsi iki ölkənin də maraqlarına cavab verir. Çünki Zəngəzur dəhlizi Ermənistanın da maraqlarına xidmət edəcək. Belə ki, dəhliz fəaliyyətə başlayandan sonra Ermənistan dəmir yolu vasitəsilə həm İranla, həm də Rusiya ilə əlaqə yarada biləcək. Bu günə qədər bu əlaqə yoxdur. Əgər dəhliz açılarsa, Ermənistan üçün yeni fürsətlər ortaya çıxacaq.

Mütəxəssislər hesab edirlər ki, Azərbacanın təklif etdiyi “3+3” əməkdaşlıq formatının ideyası, əsasən, Azərbaycan, Türkiyə və Rusiya əməkdaşlığını nəzərdə tutur. Amma İran, Gürcüstan və Ermənistanın bu əməkdaşlıqda iştirakı bölgənin perspektiv təhlükəsizliyini gücləndirə bilər. Bu, həm də iqtisadi əməkdaşlığın işğaldan, bir-birinə qarşı ərazi iddiasından perspektivli olduğunu ortaya qoya bilər. Çünki Azərbaycan, Türkiyə, Gürcüstan arasında regional əməkdaşlıq öz bəhrəsini verib.

“CNN Türk” kanalına müsahibəsində Prezident İlham Əliyev bu formatın perspektivini dəyərləndirərkən ümid etdiyini bildirib ki, digər ölkələr də buna qoşulacaqlar.



Ancaq reallıq budur ki, Gürcüstan tərəfi hələ buna hazır deyil. Çünki Gürcüstanla Rusiya arasında diplomatik münasibətlər yoxdur. Amma buna baxmayaraq, regional işbirliyi, sabitliyin təmin olunması və gələcəkdə müharibə riskinin sıfra endirilməsi üçün bölgə ölkələri arasındakı əlaqələr çox önəmlidir. Burada konkret layihələr də müzakirə oluna bilər.

Qonşu İran İslam Respublikasının da bu formatda iştirakı müzakirə mövzusudur. Prezident İlham Əliyev “CNN Türk” kanalına müsahibəsində bu məsələyə də toxunaraq qeyd etmişdi ki, İranda indi yeni rəhbərlik hakimiyyətə gəlib və hazırda onların bölgə ilə bağlı siyasəti formalaşmaqdadır. Əlbəttə ki, həm Azərbaycanla, həm də qonşu ölkələrlə bağlı ilkin bəyanatlar müsbətdir. Ancaq yeni rəhbərliyə bu məsələ və Ermənistan-Azərbaycan münasibətləri ilə bağlı öz siyasətini ortaya qoyması üçün vaxt lazımdır. Yaxın zamanlarda İranın mövqeyi bəlli olduqdan sonra məsələ gündəmə gələcək.

Postmüharibə dövrü müharibə dövrü qədər çətin olmasa da, qeyri-müəyyən bir dövr sayılır. Çünki heç kim əvvəlcədən bu dövrdə proseslərin necə inkişaf edəcəyini müəyyənləşdirə bilməzdi. Amma bütün çətin dövrlərdə verdiyi qərarlarla, həyata keçirdiyi islahatlarla Azərbaycanın Zəfərini təmin edən Prezident İlham Əliyev bu dövr üçün də hədəflər müəyyənləşdirmişdir. İndi Azərbaycan öz iqtisadi qüdrətindən yararlanmaqla postmüharibə dövrünün reallıqları əsasında inkişafını davam etdirir. Yəni dövlətimizin başçısının müharibədən sonra gələcək addımlarla bağlı müəyyənləşdirdiyi “yol xəritəsi” ilə Azərbaycan Cənubi Qafqazdakı mövqeyini getdikcə daha da gücləndirir. Zəngəzur dəhlizinin açılması isə ölkəmizin iqtisadi qüdrətini daha da yüksəldəcək.

Azərbaycan dövlətinin təklif etdiyi yeni format iqtisadi baxımdan böyük potensial vəd edir. Xüsusən də qarşılıqlı sərmayə qoyuluşu, sənaye, aqrar və xidmət sektorunda əməkdaşlıq imkanları genişdir. Bu format “Zəngəzur dəhlizi” də daxil olmaqla, nəqliyyat coğrafiyasını dəyişmək gücündədir. Xüsusən də Azərbaycanın su, hava, avtomobil və dəmir yolu nəqliyyat infrastrukturu altılıq ölkələrinin inteqrasiyasında mərkəzi mövqeyə malik ola bilər. Beləliklə, Azərbaycan Prezidentinin irəli sürdüyü və Rusiya, Türkiyə tərəfindən dəstəklənən yeni əməkdaşlıq platforması Ermənistan qarşısında artıq qurulu olan regional iqtisadi əməkdaşlıq sisteminin qapılarını açır. Əslində, Ermənistanın başqa bir alternativi də yoxdur. Reallıq ondan ibarətdir ki, əgər Ermənistan iqtisadiyyatını dirçəltmək və ölkə əhalisini acınacaqlı durumdan qurtarmaq istəyirsə, məhz Azərbaycan Prezidentinin təşəbbüsü ilə qurulan platformaya qoşulmalıdır. Əks təqdirdə, yenə də uduzan tərəf Ermənistan olacaqdır.

***Elçin Zaman***

# Azərbaycan və İran XİN rəhbərləri arasında telefon danışığı olub

**Avqustun 31-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan arasında telefon danışığı olub. XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov İran İslam Respublikasının xarici işlər naziri vəzifəsinə təyin olunması münasibətilə həmkarını təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.**




Ceyhun Bayramov Azərbaycan və İran arasında dərin tarixi köklərə əsaslanan dostluq və əməkdaşlıq münasibətlərinin, geniş spektrli ikitərəfli əməkdaşlıq gündəliyinin mövcudluğunu vurğulayıb və iki ölkə tərəfindən bir sıra layihələrin uğurla icra olunduğunu qeyd edib.

Tərəflər, həmçinin regionda mövcud olan cari vəziyyət və ikitərəfli əməkdaşlığın bəzi məsələləri ətrafında fikir mübadiləsi aparıblar. Nazir Ceyhun Bayramov iranlı həmkarını Azərbaycana rəsmi səfərə dəvət edib.

# Lavrov Ermənistan-Azərbaycan sərhədində vəziyyətin uzunmüddətli nizamlanmasının şərtlərini açıqlayıb



**“Ermənistan-Azərbaycan sərhədində vəziyyət ətrafında fikir mübadiləsi apardıq. Hesab edirik ki, bütün məsələləri istisnasız olaraq siyasi-diplomatik metodlarla nizamlamaq lazımdır”. “İki sahil” xəbər verir ki, bunu Rusiya xarici işlər naziri Sergey Lavrov erməni həmkarı Ararat Mirzoyanla danışıqlarının yekunlarına dair birgə mətbuat konfransında bildirib.**

“Uzunmüddətli nizamlama isə ancaq sərhədlərin delimitasiyası və demarkasiyası prosesinin aparılması ilə mümkündür. Rusiya Prezidentinin bununla bağlı təşəbbüsü yaxşı məlumdur. Biz bu gün bu təşəbbüsün necə tez həyata keçirilməsinin mükkünlüyü barədə danışdıq. Bu prosesə hərtərəfli kömək etməyə hazır olduğumuz təsdiqlədik”, deyə Rusiya XİN başçısı vurğulayıb.

S. Lavrov Cənubi Qafqazda iqtisadi və nəqliyyat əlaqələrinin açılması ilə bağlı üçtərəfli işçi qrupun fəaliyyətindən razı olduqlarını da söyləyib: “Ümid edirik ki, bu mexanizmin fəaliyyəti və bütün kommunikasiyaların açılması təkcə Cənubi Qafqaz regionunun iqtisadi inkişafına deyil, regionda siyasi nizamlanmanın etibarlı əsaslarla təmin olunmasına və regionun çiçəklənməsinə kömək edəcək”.

# Uşaqların həddindən artıq smartfondan istifadə etməsi nə qədər doğrudur?

Araşdırmalara görə, smartfonların gündəlik həyatda və insanlararası münasibətlərdə funksionallığa təsir edən təkrarlanan davranış pozğunluqlarına səbəb olduğu müşahidə olunur. Smartfonların istifadəsi bir çox rahatlıq təmin edir, həm də psixoloji, fizioloji və insanlararası münasibətlərə mənfi təsir edir. Araşdırmalara görə, fərdlərin 5 yaşında ilk cib telefonuna və 10 yaşında ilk ağıllı telefonuna sahib olmaları, cib telefonlarından çox erkən yaşlarından istifadə etməyə başlamalarının telefon asılılığına təsir etdiyini göstərir. Smartfon istifadə pozğunluğu əsasən telefondan uzaq dura bilməmək, telefonu tez -tez yoxlamaq istəyi, smartfonda keçirdiyi vaxtın fərqinə varmamaq səbəbindən yuxu keyfiyyətinin pisləşməsi və istifadə səviyyəsinin artmasından qaynaqlanır. Bəs, bunların baş verməməsi üçün uşaqlar neçə yaşında telefon alınmalıdır? Uşaqların smartfonlardan istifadəsi necə tənzimlənməlidir?

Bu barədə psixoloq Aytən Ələkbərova SİA-ya öz fikirlərini bölüşüb. O mövzuyla bağlı deyib: " Əslində, övladlarımızın telefona meyil etməsi və ondan istifadə etməsi təbiidir ki, bir sıra hafizədə psixi əməliyyatlarla bağlıdır. Yəni onlarla fəal sürətdə yiyələnmək, insan özünə lazım olan informasiyanı əldə etmək üçün telefonun daha çox bu məqamından istifadə edir. Amma gəlin görək bizim uşaqlar necə? Təbii ki, hafizə hadisəsi eyni dərəcədə emosional aləmə, qavrayış sahəsinə aid ola bilir. Bu, eləcə də, hərəki prosseslərdə intellektual təcrübənin möhkəmlənməsini əhatə edir. Əgər biz bununla bağlı bir övladımızın hafizəsinin fəaliyyətinə nüfuz edən tərəfləri görürüksə, təbiidir ki, biz onu elə tənzimləməliyik ki, övladımız bunu şüurlu şəkildə qəbul edə bilsin. Yəni həmin prosseslərin qarşılıqlı əlaqəsinə diqqət edirik ki, bizə lazım olacaq tərəfdən müəyyən materialları yadında saxlaya bilsin. Hansı ki, indi hazırda onlayn sistemdir. Onlayn sistemin özünün içərisində baxırıq ki, məcburən biz materiallardan istifadə etməliyik. Demək ki, biz övladımıza ancaq və ancaq bu sənin intellektual səviyyəni artırmaq üçündür deyə bəzi fikirlərimizi tez-tez xatırlatsaq daha yaxşı olar. Bəzən də biz baxırıq ki, övladlarımızın yeniyetmə yaşına çatan bir dövrdə 7-13 yaş aralığı bu, hansı ki ikinci şəxsiyyət dövründən üçüncü şəxsiyyət dövrünə keçiddir. Bəli bu zaman müəyyən xaotik dövr olduğu üçün müəyyən gözləmədiyimiz hadisələrə ortaya çıxa bilər. Mütləq şəkildə valideyinin diqqəti və nəzarəti olmalıdır. Onunla bərabər hər hansı filmi izləməsi, gözəl bir musiqini dinləməsi, gözəl bir musiqinin müşaiyyəti ilə bərabər ev işlərini görə biləcəyi məqamlar və yaxud deyək ki, yolda getdiyiniz zaman avtomobildən istifadə etmək üçün musiqiyə qulaq asmaq kimi addımlar atmaq olar. Amma biz bəzən baxırıq ki, bizim övladlarımızın həddindən artıq o oyunlara meyil etməsi onların psixi durumunda zombiləşməyə gətirib çıxarır. Odur ki, biz övladlarımızı telefondan yenə deyirəm elə bir məqamdır ki, tamamilə uzaqlaşdıra bilmərik. Nə də ki, biz bu yaşdan bu telefonu verməməlisiz deyəndə bizi eyni zamanda anlamayacaq insanlar olacaq. Deyəcəklər axı sinifdə filankəsdə var, bu mənim uşağımı depressiyaya salır. Bu depressiyaya salırsa, mən məcburam hə yaxşı sinifdə də hamının varsa, biz də öz övladımıza bunu məsləhət görək. Amma çox gözəl olardı ki, telefondan istifadəni biz övladımıza üçüncü şəxsiyyətə keçid dövründə hansı ki abitruyent hazırlığıdı filan həmin dövrdə ağıllı şəkildə təqdim etməyi bacaraq".








Sosioloq Lalə Mehralı da öz fikirlərini bizimlə bölüşdü. Lalə Mehralı fikirlərini belə dilə gətirib:"Bu sualla iki il əvvəl müraciət etsəydiz, mən deyərdim ki, ümumiyyətlə, yetkinlik yaşına çatana qədər uşaqlara müəyyən istisnalar xaricində telefon verilməyinin əleyhinəyəm. İstisnalar da bu ola bilər ki, valideyin işdə, səfərdə olanda uşaqla əlaqə saxlamaq üçün müəyyən çərçivədə telefon verə bilər. Amma pandemiyanın bizə diqtə etdiyi şərtlərdən biri də mütləq şəkildə hər bir uşaqda smartfon olması məsələsidir. Təhsilə görə, valideyinlər istər öz telefonlarını, istərsə də uşağa özəl telefon vermək məcburiyyətində qalır. Valideyinin smartfonu var, amma bütün günü işdə olur. Övladı dərslərə qoşulmalıdır. Bu zaman da telefon ehtiyacı yaranır. Valideyinlər bu kimi hallar qarşısında uşaqlara telefon almaq məcburiyyətində qaldı. Əksəriyyətimiz bundan məmnun olmasaq da, məcburiyyət qarşısında qalaraq aldıq. Doğrudur, heç vaxt yetkinlik yaşına çatmamış uşaqların smartfondan istifadə etməsini düzgün hesab etməsəm də, pandemiya şəraitində onun əksini eləməyə məcbur qaldıq. Hər kəs kimi mən də oğlumun şəxsi telefonu olsun deyə almadım. Mənim telefonumu istifadə edərək dərslərə qoşuldu. Tutalım, mən bu şəraiti övladım üçün iş saatlarım münasib oldu deyə yaratdım. Səhər tezdən gedib, gecə yarı dönən valideyinlər bu imkandan istifadə edə bilmədiyi üçün övladına smartfon almaq məcburiyyətində qaldı. Təbii ki, uşaqların azad internet istifadəsini təmin etdi. Uşaqlar valideyin nəzarəti olmadan telefondan istifadə etdi. Istədiyi platformalara girib-çıxa bildi. Təbii ki, bu da onun davranışında təlim-tərbiyyəsində özünü göstərir. Valideyinlərdən asılı olmayan səbəblərdən olduğu üçün smartfonları uşaqların həyatından çıxarmaq məsələsi bir qədər real görünmür. Çünki biz bu ildə gözləyirik ki, uşaqlarımız onlayn şəkildə təhsil alacaq. Bu səbəbdən də smartfonları uşaqların həyatlarından tamamilə çıxara bilmirik. Amma maksimum nəzarəti təmin edə bilərik. Yenə təkrar edirəm ki, bir çox valideyin gün ərzində işdə olduğuna görə, nəzarəti həyata keçirə bilmir. Bəziləri texnologiyadan başı çıxmadığı üçün izləmə funksiyalarını yerinə yetirə bilmir. Mən hesab edirəm ki, uşaqları valideyinlərin özü ilə aparması ən yaxşı variantdı. Uşaqlara başa salmaq lazımdır ki, hara giriş-çıxış onun yaşına uyğundu. Hansı platformalar onun yaşı üçün uyğun deyil. Bu məsələni yalnız danışıq yolu ilə həll etmək olar. Uşaqlar elə psixologiyaya malik olurlar ki, onlara qadağan olan nə varsa, onlara maraq göstərirlər. Hansı sayta, hansı platformaya girməsini qadağan etsək, məhdudlaşdırsaq ona yönəlirlər. Bu baxımdan da yalnız danışıq, başa salma yolu ilə nəyəsə nail olmaq olar. Bizdən asılı olmayan səbəblərdən uşaqlar smartfonlara asılı olur, aludəçi olur. Necə deyərlər elnən gələn toy bayramdır. əlimizdən heç bir iş gəlmir. Bütün bunlar pandemiyanın bizə gətirdiyi şərtlərdir".

***Turqay Musayev***

# 6 min 943 nəfərin virusdan öldüyü qeyd edilib

İsraildə məktəblərdə üz-üzə təhsilin başlamasından 24 saat əvvəl, yeni növ koronavirus (Kovid-19) epidemiyası başlayandan bəri ən yüksək gündəlik hadisə qeydə alınıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, İsrail Səhiyyə Nazirliyindən edilən yazılı açıqlamada, son 24 saatda 10.947 adamın testinin müsbət çıxdığı və 24 xəstənin həyatını itirdiyi bildirilib. Bunun, pandemiyanın başladığı 2020 -ci ilin fevralından bəri ölkədə görülən ən yüksək gündəlik hadisə olduğu bildirilib. Beləliklə, təxminən 9,3 milyon əhalisi olan İsraildə ümumi hadisələrin sayının 1 milyon 66 mini keçdiyi və 6 min 943 nəfərin virus səbəbilə öldüyü qeyd edilib. Aktiv halların sayının 83 mini keçdiyi ölkədə 719 xəstənin vəziyyətinin ağır olduğu bildirilib.

***Turqay Musayev***



**MƏTLƏB**
*Metlebsalahov@mail.ru*

# Cəlil Məmmədquluzadə, biz yenə həmin ÖLÜLƏRIK...

**Vallah hardan başlayıb harada bitirəsən, nə yazasan ki, ürəyini soyudasan, inanın mən bilmirəm. İnternet əsrində dələduzun biri çıxıb ortaya, əlində də jurnalist vəsiqəsi düşüb el-obanın canına ki, mən on ikinci imamam, bəs zühur eləmişəm filan. Əğstəğfürullah tövbə, bir anlıq adamın ağlından o keçir ki, olmaya sonuncu imam mətbuatdan zühur edəcək?- amma "lənət şeytana" deyib keçək əsl mətləbə. Çünki böhranda çapalayan, qeyri-peşəkarların, yalançı "jurnalistlərin", iki kəlmə cümləni düz-əməlli ağ səhifəyə köçürə bilməyənlərin həşərat kimi daraşdığı mətbuat səhnəsindən ancaq balaqlarına qədər rəzillik bataqlığına bulaşan günah ikonası çıxa bilər, nəinki dördüncü imam.**

İndi də keçək ən dəhşətli məqama. O "dəhşət" deyə yazdığımız məqam da odur ki, bu sonuncu "imama" 420000 manat "tərləyən" cahil və bisavad insanlar deyir ki, pulu ona görə vermişik ki, bəs bizi cənnətə yollayacaq, dərdlərimizə çarə tapacaq, nə bilim nə və sairə və ilaxır...

Vallah, billah qalmışam nə yazım ki, ürəyimi soyudum, bu avam, bu cahil kütləni yerdən-yerə vurum ki, bəlkə toxtayım. Bu adam imam adı altında DÖRD YÜZ İYİRMİ MİN MANATI qatlayıb qoyub cibinə. İmam adı ilə, əsas da avam kütləni cənnətə yola salmaq adı ilə. Elə bil Bakıdan Salyana sərnişin yollayır avtobusun "vip" oturacağında.

Bir tərəfdən bunun belə olmadığını, bu işin altında başqa bir işin "yatdığını" düşünürəm. Çünki "şeytana papış tikənlərin", sosial şəbəkələrdə min oyundan çıxanların hegemonluq etdikləri bir cəmiyyətdə hansısa avam dələduza dörd yüz iyirmi min manat "tərləyəcək" cahillərin olacağına böyük şübhəm var. Onun-bunun bank hesablarına kiber hücumlarla soxulub, küllü miqdarda pullar əkişdirənlərin yaşadıqları cəmiyyətdə, dörd yüz iyirmi min manatı hansısa "imama" yedizdirən cahilləri tapmaq vallah qəliz məsələ kimi görünür. Bu adamın sosial şəbəkələrdə bahalı villalar və maşınlarla çəkilmiş şəkilləri görüntülənib. Hətta "iş adamı" belə olduğu yazılır. Çox dolaşıq və qəliz məsələdir. Belə inanmaq olmur e bu məsələyə. İnanmaq olmur ki, internet əsrində axmağın biri düşsün ortaya, əlində aləm tutub kosmosa uçurmaq istəyənlər kimi düşsün ortalığa və 420000 manatı qoysun cibişdana. Üstəlik də desin ki, bəs cənnətə marşrut var, özü də koronasız-filan...

Amma bir yandan da elə həmin o sosial şəbəkələrdə, tik-tok videolarında cahil insanların yüz oyundan çıxdıqlarını, bir gənci "cin çıxarmaq" adı ilə necə döyüb öldürdüklərini, məscid axundlarının minbərlərdən islam dininin dəyərli insanlarını gözdən salan, onların ciddiyyətini heçə endirən gülünc nağıllar uyduraraq, onların adından fərziyyələr oxuduqlarını, islam dinində heç vaxt olmayan uydurma adətlərlə bu dini gözdən saldıqlarını görəndən sonra adam yerindəcə quruyur. İnternet əsrində bu cür cahillik,- artıq gerçək həqiqətdir. İstəsək də, istəməsək də.

Bilirsiniz bunların əsas səbəbi nədir, mən deyim siz oxuyun?! Nə vaxta qədər ki, ölkəmizdə həqiqi islam dini elmi şəkildə təbliğ olunmayacaq, islam əsl elm və dəyərlər dini kimi deyil, bir nağıl və cahillik dini kimi minbərlərdən təqlin olunacaq. Nə vaxta qədər ki, Allaha xoş getsin deyə məkansız, yoxsul, əl-ayağı olmayan möhtac insanlara deyil, din adı altında oliqarxlaşmış məmurların "nəzir qutularına" pullar axışacaq, nə vaxta qədər ki, keçmiş "türemçiklər", avtobus sürücüləri, kassirlər başlarına əmmamə qoyub mənasını heç vaxt anlamadıqları vərəqələrdən qəbiristanlıqlarda uyuyan mərhumlara "quran tapşıracaqlar", bax, bu cahillik də bizimlə hələ çox əsrlər yol gedəcək.

Yenə Cəlil Məmmədquluzadələr, Mirzə Ələkbər Sabirlər, Mirzə Fətəli Axundovlar ortaya çıxacaq, yenə nəçə-nəçə "Ölülər" yazılacaq, amma biz gələn əsrlərdə də düzələsi deyilik. Mirzə Cəlil, boylan, bax, biz heç cürə düzələn deyilik. Biz internet və kosmos əsrində də yenə sizin zamanınızda olan ağıldayıq, şüur və düşüncəmiz yenə də fayton və qazalax əsrindəki kimidir. Biz sizin dövrünüzdəki kimi, kasıb-kusubu əzən, zəifin haqqını yeyənlərik, pulu yoxdur, rüşvət deyil deyənə kasıbın salamını almayanlarıq. Əziz Sabir, biz yenə də "Millət necə tarac olur-olsun nə işim var, düşmənlərə möhtac olur-olsun nə işim var" düşüncəsi ilə yaşayırıq. Biz dünyanın ölümlə çarpışdığı ən ağır vaxtlarda koronavirusdan milyonlar qatlamaq üçün min bir yola baş vuranların, maska əməliyyatı keçirib boğaz kəsənlərin cəmiyyətiyik. Cəlil Məmmədquluzadə, biz yenə də həmin ölülərik...

# Yeni Azərbaycan Partiyası yeni hədəflərə yüksək səviyyədə nail olmaq potensialına, gücünə malikdir

## *YAP Füzuli rayon təşkilatının VIII hesabat konfrası keçirilib*

**Avqustun 31-də Yeni Azərbaycan Partiyası Füzuli rayon təşkilatının videoformatda VIII hesabat konfransı keçirilib.**

Əvvəlcə Yeni Azərbaycan Partiyasının yaradıcısı, ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.










Konfransın gündəliyi təsdiq edildikdən sonra YAP Füzuli rayon təşkilatının sədri Almaz Həşimovanın hesabat məruzəsi dinlənilib. Bildirib ki, rayon təşkilatının



VII konfransından keçən 3 ildən artıq müddət ərzində ölkəmizin həyatında mühüm uğurlar əldə edilib, iqtisadi, sosial və digər sahələrdə əsaslı irəliləyişlər olunub, Azərbaycanın dövlət müstəqilliyi daha da möhkəmlənib, beynəlxalq nüfuzu xeyli artıb. Bu gün Heydər Əliyev ideyalarının və onun siyasi kursunun qətiyyətli davamçısı, Yeni Azərbaycan Partiyasının Sədri, ölkə prezidenti İlham Əliyevin çoxşaxəli səmərəli fəaliyyəti YAP-ın aparıcı mövqeyini daha da möhkəmləndirir.

Rayon təşkilatının sədri bildirib ki, YAP Füzuli rayon təşkilatının 63 ərazi ilk partiya təşkilatında 6674 üzv var. Onların 1958 nəfərini gənclər, 3099 nəfərini isə qadınlar təşkil edir.

Sonra YAP Füzuli rayon təşkilatının Nəzarət-Təftiş Qrupu sədri Rafiq Məstəliyevin hesabat məruzəsi dinlənilib.

Müzakirələr zamanı YAP Füzuli rayon təşkilatı İdarə Heyətinin üzvü, Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev, Milli Məclisin deputatı Vüqar Bayramov, rayon təşkilatı İdarə Heyətinin üzvləri - təşkilatın sədr müavini Rəfael Zülfüqarov, Təhsil şöbəsi ərazi ilk partiya təşkilatının sədri Ramella Məmmədova, rayon təşkilatı Gənclər Birliyinin sədri Aydın Rəşidli hesabat dövrü ərzində görülən işlərdən bəhs ediblər.

Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyevə bildirib ki, Azərbaycanın dövlət müstəqilliyi, malik olduğu təbii sərvətləri, geopolitik üstünlükləri xalqımızın milli sərvətidir və hər bir Azərbaycan vətəndaşı kimi YAP-ın üzvləri də Azərbaycan Respublikasının dövlət müstəqilliyini və ərazi bütövlüyünü qorumağı özünün birinci dərəcəli vəzifəsi hesab edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası yeni reallıqların qarşıdakı illər üçün müəyyənləşdirdiyi hədəflərə yüksək səviyyədə nail olmaq potensialına, gücünə malikdir.





Ə.Tağıyev yeni mərhələdə partiyanın yerli təşkilatlarının üzərinə düşən vəzifələrdən də ətraflı bəhs edib, YAP Füzuli rayon təşkilatının gələcək fəaliyyətinə uğurlar arzulayıb.



Konfransda YAP Füzuli rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

# Əşrəf Qani edam ediləcəyindən qorxduğu üçün ölkədən qaçıb

**Əfqanıstanın keçmiş hökumət başçısı Əşrəf Qani Taliban yaraqlılarının Prezident Sarayına girib onu edam edəcəyindən qorxaraq heç kimə xəbər vermədən ölkədən qaçıb. SİA xəbər verir ki, bu barədə "Vaşinqton Post" qəzeti yazıb.**




Nəşr qeyd edib ki, Kabil və Vaşinqtondakı yüksək vəzifəli şəxslər Talibanın paytaxtı bir neçə həftəyə əlƏ keçirəcəyini gözləyirdilər. Amma Taliban avqustun 14-də Cəlalabad əyalətinin mərkəzi şəhərini ələ keçirdikdən sonra çox zəif müqavimət qarşısında paytaxta girib. "Vaşinqton Post" Talibanın Kabilə girməsindən sonra Prezident Sarayında baş verən hadisələrin real şəklini çəkib.

Keçmiş hökumət rəsmisi Amerika nəşrinə bildirib ki, Qaninin baş müşaviri Taliban döyüşçülərinin saraya girdiyini və otaqları axtardıqlarını söyləyərək onu aldadıb və buradan tez çıxmalı olduğunu bildirib. "Saraya girənlər ya sizin mühafizəçilərinizdir, ya da Taliban yaraqlılarıdır. Amma nə olur-olsun burada qalsanız sizi öldürəcəklər", - müşaviri Qaniyə deyib.

Məlumata görə, Qani bəzi şeyləri götürmək üçün evinə qayıda biləcəyini soruşduqda, bunun üçün vaxt olmadığını söyləyibləр. Bundan sonra həyat yoldaşı və müşavirləri ilə birlikdə onu təyyarənin gözlədiyi Özbəkistana uçan vertolyota miniblər. Komanda üzvləri nahardan saraya qayıtdıqda onun getdiyini və ofisinin boş olduğunu görüblər. Nəşr qeyd edib ki, əslində, həmin vaxt Taliban döyüşçüləri saraya girməmişdilər, Kabilin yaxınlığında dayanmışdılar. Qəzet yazıb ki, Qani tiliblərin sonuncu dəfə 1996-cı ildə hakimiyyəti ələ keçirdikdən sonra asılaraq edam etdiyi Əfqanıstan prezidentinin aqibətini yaşayacağından qorxur. Qani hökumət rəsmilərinə və ABŞ-a qaçması barədə məlumat verməyib.

Qani qaçma ərəfəsində dövlət televiziyasındakı müraciətində əfqanlara əsas məqsədinin xalqına qarşı zorakılığın qarşısını almaq, onlara təhlükəsiz həyat təmin etmək olduğunu deмişdi. Bu məqsədlə Əfqanıstan ordusunu yenidən qurmağa başladığını bildirmişdi.

***Aysel Məmmədova***

# Ermənilər əsir və girov götürülən Azərbaycan vətəndaşlarına qarşı soyqırımı törədiblər

Tacikistanın "faraj.tj" portalında Beynəlxalq İtkin Düşmüşlər Günü və Azərbaycanın itkin düşmüş və əsir götürülmüş vətəndaşlarının taleyi barədə tacik dilində material yerləşdirilib. AZƏRTAC xəbər verir ki, məqalədə bütün dünyada silahlı qarşıdurma, şiddət, köç və təbii fəlakətlər nəticəsində itkin düşənlər, onların uşaqları, doğma və əzizlərinin xatirəsi haqqında söhbət açılır.




Yazıda Azərbaycan əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatına da yer verilib. Bildirilir ki, 1990-cı illərdən bu günədək Azərbaycanda 3890 itkin düşən adam qeydə alınıb.

Onların 3171-i hərbçi, 719-u mülki vətəndaşdır. Əsir götürülənlərin 267-si qadın, 326-sı qoca, 71-i həddi-buluğa çatmayan uşaqdır.

Materialda Xocalı faciəsi haqqında da məlumat verilir. Vurğulanır ki, bir gecənin içində 6 min əhalisi olan Xocalı şəhəri yerlə-yeksan edilib, 612 mülki şəxs öldürülüb, 1000-dən çox vətəndaş müxtəlif dərəcədə xəsarət alıb, 150 nəfər itkin düşüb, 1275 adam-qadınlar, qocalar, uşaqlar əsir götürülüb, onlar dəhşətli işgəncələrə məruz qalıb. Əsirlər və girovlar vəhşicəsinə döyülüb, şikəst edilib, onlara damğa vurulub , dırnaqları və dişləri çıxarılıb.

Bütün bunlar sübut edir ki, erməni tərəfi əsir və girov götürülən Azərbaycan vətəndaşlarına qarşı məqsədyönlü şəkildə soyqırım siyasəti yürüdüb.

# Medianın İnkişafı Agentliyi "MEDİA könüllüləri" Proqramına başlayır

"Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikası Prezidenti 2017-ci il 15 sentyabr tarixli 3236 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramına əsasən Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi media sahəsinin inkişafı istiqamətində həyata keçirilən layihələr çərçivəsində gənclərin potensialından daha səmərəli istifadə etmək, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların təcrübi biliklərini artırmaq, yaradıcı-innovativ potensialını stimullaşdırmaq və ölkədə könüllülük hərəkatını inkişaf etdirmək məqsədi ilə "Media könüllüləri" Proqramına başlayır.




Agentlikdən SİA-ya bildirilib ki, proqram müddətində könüllülərin nəzəri və təcrübi biliklər qazanması üçün Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və müxtəlif media subyektlərində təşkil ediləcək təcrübə proqramları, təlimlər və layihələrdə iştirakı nəzərdə tutulur. "MEDİA könüllüləri" proqramı medianın inkişafının gənclər tərəfindən təşəbbüs edilən müxtəlif layihələrlə dəstəklənməsini, gənclərin bu sahədə maarifləndirilməsini təmin edəcək.

Media könüllüsü kimi fəaliyyət göstərmək istəyən gənclər üçün aşağıdakı tələblər müəyyən olunmuşdur:

Sahə üzrə təhsil
İntizamlılıq
Təşkilatçılıq
Kollektivdə işləmək bacarığı
Operativlik
Kompüter bacarığı
Təşəbbüskarlıq

"MEDİA könüllüləri" Proqramı 2 ay müddətində davam edəcəkdir. Könüllülük fəaliyyətini uğurla başa çatdırmış və öz öhdəliklərini yerinə yetirmiş könüllülər Proqramın sonunda Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən sertifikatla təltif olunacaqlar. Müraciət üçün son qeydiyyat tarixi 5 sentyabrdır. Media könüllüsü olmaq istəyən 18-29 yaş arası gənclər https://media.gov.az/volunteer linkinə daxil olaraq qeydiyyatdan keçməlidir.

**Əlavə suallar üçün:**
**Volunteers@media.gov.az**

# Qətiyyətin və milli dəyanətin təntənəsi

*İlham Əliyev: “Əziz Şuşa, biz səni dirçəldəcəyik! Bu gün eyni sözləri təkrarlayıram. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!”*

**Ötən il torpaqlarımızın müharibə yolu ilə 44 gün ərzində işğaldan azad edilməsi xalqımızın müasir və müstəqillik tarixinin böyük hərbi-siyasi uğuru oldu. Əgər 1993-cü ildə Heydər Əliyev müstəqilliyimizin əbədi olmasını təmin etmişdisə, vətəndaş qarşıdurmasının, dövlətimizin parçalanmasının qarşısını almışdısa, Ulu Öndərin layiqli siyasi davamçısı Prezident İlham Əliyev də Azərbaycanın ərazi bütövlüyünü bərpa etmiş, işğal siyasəti yürüdən Ermənistanı güc yolu ilə cəzalandırmışdı.**





2020-ci il noyabrın 8-də Şəhidlər Xiyabanında Azərbaycan xalqına Şuşanın azad edilməsi müjdəsini verərkən Ali Baş Komandan çıxışında demişdir: “Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Bu gün eyni sözləri təkrarlayıram. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!” Bəli, artıq bu gün nəinki Şuşa, işğaldan azad olunmuş bütün torpaqlarımızda dirçəliş, yeni həyat başlayıb.

## “Böyük qayıdış başlayır, bütün işlərə start verildi”

Prezident, Müzəffər Ordumuzun Ali Baş Komandanı İlham Əliyev 44 günlük müharibənin zəfərlə bitən və işğaldan azad edilən bölgələrə dərhal tarixi səfərləri hər bir azərbaycanlıya böyük qürur və fəxarət hissi yaşadır. Təbii ki, bu Qələbə zəfərdən sonra işğaldan azad olunan rayonlarına səfər Qalib Komandanın öz sevincini, görüləcək işlərlə bağlı məlumatları xalqı ilə paylaşması məqsədi daşıyır. Ən əsası isə, işğalçı ölkə ilə bərabər, bütün dünya da şahidi oldu ki, torpaqların əsl sahibləri qayıdıb. Azərbaycan öz əbədi və əzəli torpaqlarını işğalçılardan azad etdi. Qalib ölkənin Müzəffər Komandanı qazanılmış Qələbəyə möhürünü vurmaq üçün həmin ərazilərə tarixi səfərlərini edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva yanvarın 14-də Azərbaycanın işğaldan azad edilən mədəniyyət paytaxtı Şuşa şəhərində oldular. Qeyd edək ki, səfər zamanı dövlətimizin başçısının avtomobili özünün idarə etməsi isə hər kəsə açıq şəkildə mesaj verdi ki, “Mən



Şuşaya Qələbə yolu ilə gəlmişəm!”. Azərbaycan xalqı və Prezidenti heç kəsdən və heç nədən qorxmur. Biz qalibik! Zəfər bizimdir! Qarabağ Azərbaycandır!

Bəli, dövlət başçısı səfəri zamanı Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrində Füzuli-Şuşa yolunun, həmçinin Füzuli rayonunda hava limanının təməllərini qoydu: “Bu gün yanvarın 14-də Füzuli Beynəlxalq Hava Limanının təməli qoyuldu. Mən hava limanının tikintisi ilə bağlı Azərbaycan xalqına məlumat vermişdim. Bu, azad edilmiş bölgələrimizin inkişafı üçün çox önəmli bir layihədir”. Bu gün isə Şuşaya ilk səfəri zamanı verdiyi vədlərin nəticəsini növbəti səfər zamanı görürük.

## Prezident İlham Əliyev Füzuli aeroportunu Qarabağın hava qapısı adlandırıb

Bunu Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərə növbəti səfər zamanı Füzuli Beynəlxalq Hava Limanı barədə danışarkən bildirib. Birinci vitse-prezident Mehriban Əliyevanın Füzuli Beynəlxalq Hava Limanına gedərkən çəkdiyi videogörüntüdə dövlətimizin başçısı deyib: “Füzuli Beynəlxalq Hava Limanına yaxınlaşırıq. Sol tərəfdə aerovağzal kompleksidir, qarşıda uçuş-enmə zolağı. Cəmi bir neçə ay ərzində hava limanı demək olar ki, artıq açılışa hazırlaşır. Hava limanının inşası bu il başlamışdır. Mən demişdim ki, bu il Füzuli Beynəlxalq Hava Limanı istifadəyə veriləcək. Bəlkə də dünyada bu sürətli templərlə heç bir hava limanı tikilməmişdir. Artıq uçuş-enmə zolağı da hazırdır. Burada son tamamlama işləri aparılır. Bir daha qeyd etmək istəyirəm, bu il mən hava limanının təməlini qoydum indi isə gəlirik inşaat işləri ilə tanış olmağa. Bu aeroport Qarabağın hava qapısıdır”.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 29-da Füzuli Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış oldular. Birinci xanım Mehriban Əliyeva Füzuli Beynəlxalq Hava Limanının videogörüntüsünü paylaşıb. Paylaşımda bu sözlər qeyd olunur: “İşğaldan azad olunmuş ərazilərə növbəti səfərimiz. Şuşaya gedərkən”.

## Prezident İlham Əliyev Zəfər yolunda son tamamlama işləri ilə tanış olub

Səfər zamanı Prezident İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa Zəfər yolunda son tamamlama işləri ilə tanış olub. Qeyd edək ki, dövlətimizin başçısının Sərəncamı ilə təsdiq edilmiş işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində Zəfər yolunun tikintisi başa çatmaq üzrədir. İki-üç hərəkət zolaqlı yolun uzunluğu 101 kilometrdir. Artıq yolun 92 kilometrlik hissəsinə asfalt-beton örtüyü salınıb. Digər hissələrdə isə işlər davam etdirilir. Yolda körpülər və yeraltı keçidlər inşa edilib.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı ordumuzun ölkəmizin mədəniyyət mərkəzi elan olunan Şuşa şəhərini mənfur düşməndən azad edərkən istifadə etdikləri cığır-yolun əbədiləşdirilməsi məqsədilə tikilən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu dövlətimizin başçısı tərəfindən Zəfər yolu adlandırılıb.

## Prezident İlham Əliyev və Mehriban Əliyeva Şuşada Üzeyir Hacıbəylinin heykəlinin açılışında iştirak ediblər

Avqustun 29-da Şuşa şəhərində görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin heykəlinin açılışı olub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər. Qeyd edək ki, 1985-ci ildə Üzeyir Hacıbəylinin 100 illik yubileyi münasibətilə Şuşada bəstəkarın heykəli ucaldılmışdı. Heykəltəraş Əhməd Salikov tərəfindən hazırlanan abidə 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq tamamilə məhv edilib. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq bəstəkarın yeni heykəli hazırlanıb.

Məlumat verilib ki, heykəlin modeli qalmadığından yeni abidə o dövrün mətbuatında dərc olunan və arxivdə saxlanılan fotolar əsasında yaradılıb. Heydər Əliyev Fondunun dəstəyi ilə bürüncdən hazırlanan heykəl Şuşa şəhərində öz əvvəlki yerində ucaldılıb. Abidə heykəltəraşlar Aslan Rüstəmov, Teymur Rüstəmov, Mahmud Rüstəmov tə-

# Qətiyyətin və milli dəyanətin təntənəsi!

*İlham Əliyev: “Əziz Şuşa, biz səni dirçəldəcəyik! Bu gün eyni sözləri təkrarlayıram. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!”*

rəfindən hazırlanıb.

Həmin gün Şuşa şəhərində görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin heykəlinin açılışı olub. Eyni zamanda, Şuşada Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin bərpadan sonra açılışı da olub. Qeyd edək ki, 1982-ci il yanvarın 14-də xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə Azərbaycanın qədim mədəniyyət mərkəzi Şuşa şəhərində Molla Pənah Vaqifin məzarı üzərində ucaldılan əzəmətli məqbərənin açılışı olmuşdu. Məhz bu səfər çərçivəsində ümummilli lider Heydər Əliyev Vaqif Poeziya Günlərinin keçirilməsi ilə bağlı göstəriş verdi və həmin ilin 29 iyul - 3 avqust tarixlərində Şuşada Vaqif Poeziya Günləri keçirildi.Muzey-məqbərə kompleksi Cıdır düzünə yaxın bir ərazidə dahi şairin məzarı üstündə inşa edilmişdi. Dördkünc quruluşa malik və mərmərlə bəzədilən türbənin inşası məsələsi həll edilərkən ətrafdakı dağ mənzərəsi və şəhərsalma xüsusiyyəti nəzərə alınaraq, Azərbaycanın qülləvari türbələrinin kompozisiya quruluşundan istifadə edilmişdi. Məqbərənin inşasında xalq memarlığının yerli ənənələrinə, monumental-dekorativ və tətbiqi plastika vasitələrinə yer verilmişdi. Türbənin daxilində Molla Pənah Vaqifin heykəltəraş Albert Mustafayev tərəfindən hazırlanan büstü qoyulmuşdu. 1992-ci ildə Şuşa şəhərinin Ermənistan tərəfindən işğalı nəticəsində kompleksin binası və burada sərgilənən bütün eksponatlar məhv edildi. Müzəffər Azərbaycan Ordusunun şanlı Zəfərindən sonra, 39 il əvvəl məqbərənin açıldığı gündə - yanvarın 14-də Şuşa şəhərinə səfəri zamanı məqbərəni ziyarət edən Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, burada təmir-bərpa və yenidənqurma işlərinə start verildi.

Məqbərədə təmir-bərpa və yenidənqurma işləri Heydər Əliyev Fondu tərəfindən aparılıb. 2021-ci ilin mart ayından başlayaraq türbə ilkin mərhələdə konstruktiv müayinədən keçirilərək, tələb olunan hissələr üzrə gücləndirmə tədbirləri araşdırılıb və bu çərçivədə işçi layihələr hazırlanıb. İşçi layihələr əsasında xarici mütəxəssislər tərəfindən təyin edilən xüsusi kimyəvi materiallarla elementlərin konstruktiv bərpa işləri yerinə yetirilib, korroziyaya qarşı əlavə tədbirlər görülüb. Həmçinin abidənin dam örtüyü yenidən qurulub. Topoqrafiya işləri nəticəsində əldə edilən məlumatlar üzrə, o cümlədən ərazidə axtarış işləri keçirməklə qırılmış, dağılmış üzlük hissələrin əldə edilməsi ilə birlikdə abidənin ilkin ölçülərinin bərpası məqsədilə memarlıq işçi layihələri hazırlanıb. Bu layihələr əsasında isə fasadın və daxili hissələrin divar səthləri mərmərlə üzlənib və abidənin tarixi görkəmi bərpa edilib.

Bundan əlavə, ərazidən tapılan tökmə alüminium şəbəkə nümunəsi əsasında hazırlanmış işçi layihələr üzrə bütün şəbəkə və dekorlar, o cümlədən giriş qapısı tökmə üsulu ilə alüminium materialdan tarixi ölçüləri qorunmaqla hazırlanıb, Şuşa şəhərinə gətirilərək layihə üzrə quraşdırılıb. Salonun mərkəzində qəbir daşı üzərində qara mərmərdən sənduqə qoyulub, ilkin formanın bərpası nəzərə alınmaqla büst ağ mərmərdən işlənib hazırlanaraq quraşdırılıb.

Abidənin hər detalında tarixi görkəm qorunub saxlanılıb. Abidə kompleksinin bütün infrastrukturu yenidən qurulub, yağış suları üçün drenaj xətləri və elektrik xətləri çəkilib quraşdırılıb. Landşaftda istinad divarları və meydança tarixi görkəmi çərçivəsində qranitlə üzlənib. Eyni zamanda ətrafda o dövrün şəkillərində əks olunduğu kimi, müxtəlif növ qızılgül kolları əkilib.









## Şuşada Xüsusi nümayəndəliyin yerləşəcəyi inzibati binada bərpa işləri aparılır

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva Şuşada Xüsusi nümayəndəliyin yerləşəcəyi inzibati binada aparılan bərpa işləri ilə tanış olublar. Həmçinin, “Otel və Konfrans Mərkəzi”nin təməlqoyma mərasimində də iştirak edib. Qeyd edək ki, Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması üçün bərpa-quruculuq işləri sürətlə davam etdirilir. Qədim dövrdə Şuşa Böyük İpək Yolunun əsas qovşaqlarından biri idi. Avropa və Şərq şəhərləri ilə birbaşa ticarət əlaqəsi saxlayırdı. Bu şəhərlərdən davamlı gəlib-gedən tacirlərin gətirdikləri malları saxlamaq üçün karvansaraylar tikilirdi. Karvansaray konseptini əsas götürərək, Şuşa şəhərinin mərkəzində, Zəfər yolunun üzərində yerləşəcək 5 ulduzlu “Otel və Konfrans Mərkəzi” müasir və milli memarlıq üslublarının sintezi ilə dizayn edilib. Mərkəz 2,8 hektar ərazini əhatə edəcək. Memarlıq adət-ənənələrini özündə əks etdirən xarici görünüşündə ornamental kompozisiyalar və milli memarlıq elementləri tətbiq ediləcək. Həmçinin fasadın üzlənməsində Şuşanın tarixi binalarının tikintisində işlənilən yerli daşdan istifadə olunacaq. Bundan əlavə, mərkəzin eyvanları, şimal və cənub fasadları ənənəvi memarlıq quruluşunda, Şuşanın tarixi binalarının - XIX əsrə aid Zöhrabbəyovun evi, Üzeyir Hacıbəyovun ev-muzeyinin tikintisində istifadə olunmuş taxta tərkibli materiallardan hazırlanıb. Beş mərtəbədən və 150 nömrədən ibarət “Otel və Konfrans Mərkəzi”ndə otaqlar, restoranlar, konfrans korpusları, daxili həyətlər olacaq.Həmçinin, səfər zamanı Şuşa şəhərində yenidənqurma işləri yekunlaşan “Qarabağ” hotelinin açılışı olub. Eyni zamanda, Şuşada yeni yaşayış massivinin təməli də qoyulub.

## Vaqif Poeziya Günləri yenidən təşkil olunub

Növbəti səfər zamanı Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Vaqif Poeziya Günlərinin açılışında iştirak ediblər.

Avqustun 30-da Vaqif Poeziya Günləri Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə şairin doğma şəhərində yenidən təşkil olunub. Dövlətimizin başçısı açılış mərasimində çıxış edib. Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vaqif Poeziya Günləri çərçivəsində təşkil edilən “Qarabağ Azərbaycan mədəniyyətinin incisidir” və “Yenidən doğma diyarda: Qarabağın sənət inciləri” sərgiləri ilə tanış olublar.

Bəli, artıq Qalib ölkənin Qalib Lideri, bu torpağın sahibləri qayıdıblar, əllərində silah və bayraq, ürəklərində Vətən sevgisi! Dövlət başçımızın dediyi kimi: “Biz tarixi ədaləti bərpa edirik - güc hesabına, əzm, iradə hesabına, cəsarət, mətanət hesabına, milli ruh hesabına! Natəvan, Üzeyir bəy, Bülbül milli ruhumuzun təcəssümüdür. Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayıb və əbədi yaşayacaqdır. Qarabağ Azərbaycandır!”

## Budur qətiyyətin və milli dəyanətin təntənəsi

Bəli, budur qətiyyətin və milli dəyanətin təntənəsi. Budur, dünya səviyyəli, cəsarətli lider! Budur, xalqın Prezidenti olmaq! Beləliklə, Prezident İlham Əliyev ata vəsiyyətini şərəflə yerinə yetirdi, xalqına, məcburi köçkünlərə verdiyi sözə sahib çıxdı, güclü Azərbaycan yaradaraq düşməni onunla hesablaşmağa vadar etdi. Azərbaycanın ərazi bütövlüyünü bərpa edən müdrik lider, böyük strateq, qalib sərkərdə kimi adını əbədi olaraq tarixə yazdırdı, 44 günlük Vətən müharibəsinin əsl qəhrəmanına çevrildi.

Dövlət başçımızın dediyi kimi, indi Natəvanın, Üzeyir bəyin, Bülbülün ruhları şaddır: “Tarixi ədalət bərpa olunur. Biz tarixi ədaləti bərpa edirik - güc hesabına, əzm, iradə hesabına, cəsarət, mətanət hesabına, milli ruh hesabına! Natəvan, Üzeyir bəy, Bülbül milli ruhumuzun təcəssümüdür. Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayıb və əbədi yaşayacaqdır. Qarabağ Azərbaycandır!”

**RƏFİQƏ HÜSEYNOVA**

TƏRS BAXIŞ+ÖZƏL

# Bakı İrəvanın kaprizlərinə dözmək fikrində deyil

## *Xankəndi oyunbazlığına və s. sirk tamaşalarına pərdə çəkilir*



**Fakt budur ki, Azərbaycanın ermənidilli əhalisi Qarabağda işıqsız, susuz, eləcə də mobil rabitəsiz və internetsiz qalıb, özü də “gələcəklərinə” inanmaqla! Hansı gələcəklərinə? Artıq gorbagor “statuslarının” gələcəyinəmi, yoxsa “müstəqilliklərinin” gələcəyinəmi, ya da öz problemləri ilə xəritədən silinməyə doğru gedən “ana” Ermənistanın onu tanımasınamı..? Gülüncdür!**

Bu arada onu da qeyd etmək yerinə düşərdi ki, Ermənistan hakimiyyətinin Azərbaycanla əməkdaşlığa gedərək sərhədlərin delimitasiyası və demarkasiyası təklifindən imtinası Qarabağ ermənilərinə gözlənilməz əks-effekt verdi.

Azərbaycanın ermənilər yaşayan ərazilərində bu əhali üçün gözlənilməz katastrofik və anlaşılmaz hadisələr bir-birini sürətlə əvəzləməyə başladı:

Qızmar, yandırıcı yay aylarında həm içməli, həm də suvarma sularının verilməsində axsamalara başlanıldı. Xankəndi sakinlərinin su borularından adi su kəsildi. Sonra isə ümumiyyətlə, sular buxarlandı. Nəticədə şəhər sakinləri qiyam dərəcəsinə çatdılar - axı necə ola bilər ki, su hövzələri bol olan bir yerdə su qıtlığı baş versin?

Son vaxtlar özbaşınalıqları və sözün gerçək mənasında yekəxanalıqları ilə get-gedə Bakının da səbrini tükəndirməyə başladan Rusiya sülhməramlıları (SM) vəziyyətin çərçivədən çıxacağını tam yəqinləşdirdikdən sonra yanğınsöndürən və su daşıyan maşınlarla, sisternlərdə şəhərin küçələrinə, məhəllələrinə içməli su daşımağa başladılar. Üstəlik, əhalini inandırmağa çalışdılar ki, yağışlar mövsümü gələr-gəlməz hər şey yoluna düşəcək, siz sadəcə dözün (?).

İrəvan da Xankəndi əhalisini inandırmağa başladı:

- Siz dərhal panikaya düşməyin, sıxılmayın, Qərb bizə kömək edəcək, İran da yardımını əsirgəməyək və s...

Həqiqətən də bir neçə İran furaları hansısa sirli yollarla Xankəndidə göründülər və az da olsa şəhərdəki qiyam ab-havasını aldılar, amma bu da uzun sürmədi, cəmi bir həftə. İranın səfiri Azərbaycan XİN-nə çağırıldı və ona müvafiq Nota verildi. Bildirildi ki, İranın Azərbaycan ərazilərində fəaliyyəti inam və etibarı azaldır, Tehranla Bakının münasibətlərini şübhə altında qoyur. Məhz bundan sonra İranda düşündülər və Qarabağa gedişlərə yavaş-yavaş son qoyuldu. Hətta belə deyək, qonşu İranın yeni prezidenti İbrahim Rəisi ermənisevər eks-prezident Həsən Hatəmiyə tay olmadığını nümayiş etdirdi. Beləliklə, İranın da yardımı birdəfəlik oldu.



Xankəndinin əhalisi və ətraf kəndlərin sakinləri artıq Azərbaycandan köçməyə hazırlaşdılar, hətta İrəvana da deyil, daha uzaqlara. Əvvəlcə evlərinin, mənzillərinin, torpaqlarının, bağbostanlarının, ev əşyalarının, hətta zirəmilərdəki tutovka araqlarının, çaxırlarının, qab-qaşıqlarının əllərinə düşən hər şeyin qiymətlərini müəyyənləşdirib elan verdilər. Özü də elanların sayı yüzlərlə ölçüldü, fəqət alıcı sayı “0”! Kim alacaq ki? Deməli belə hesab mümkündür ki, onlar apara biləcəklərini aparacaqlar, apara bilməyəcəklərini isə ya Kəlbəcərdə və s. azad olunmuş torpaqlarımızda olduğu kimi od vurub yandıracaqlar, ya da eləcə qoyub-gedəcəklər. Başqa çıxış yolları da yoxdur zatən. Hə, düşüncəliləri olarsa, onlar Azərbaycanın qanunlarına tabe olaraq heç bir problem-filan olmadan rahat həyatlarını sürdürməyə davam edəcəklər. Buna isə kimsənin şübhəsi olmamalıdır.

Amma gəlin-görək, bu olaylarda İrəvan nə edirdi? İrəvan 44 günlük müharibədəki məğlubiyyətini unudaraq Bakı ilə “şərtlərlə” danışmağa cəhd göstərdi. Lakin nəticədə cəmi ikicə günə Bakı İrəvana elə bir dərs verdi ki..!

Azərbaycanın şanlı Silahlı Qüvvələri İran-Qafam-Gorus-İrəvan avtotrasının özünə aid 21 kilometrlik suveren hissəsini bağladı. Nəticədə İrəvan və Xankəndi mühasirədə və blokadada qaldı.

Bundan sonra gözlənilldiyi kimi, Ermənistan hakimiyyəti özünün ənənəvi haray-həşirini qaldırdı, “Bakı Ermənistana gedən və onu Fars körfəzi ilə əlaqələndirən yolu bağlamaq üçün ixtiyar sahibi deyil... BMT-nin Baş Assambleyası, ATƏT, Vaşinqton, Paris və Tehran bunu belə qoymayacaq, Bakının üzərinə sanksiyalar yağışları yağacaq və s. və i...”

İrəvanda və Xankəndidə, hətta Gümrüdə və Stepanavanda, Eçmiədzində məhz belə düşünürdülər. Sadəcə düşünürdülər, amma onblar elə düşünməklərində qaldılar, çünki sakitlik oldu, heç bir ölkə, qurum və təşkilat bu məsələyə müdaxilə etmədi və edə də bilməzdi, Azərbaycan öz suveren, beynəlxalq miqyasda tanınan ərazilərinə çaki-düzən verir, Bakı ixtiyar sahibidir!

Bunu dərk edən İrəvan yenidən hay-küy salaraq Moskvaya, Brüsselə, Vaşinqtona və Parisə şikayət etdi ki, “artsaxın” ərazisində mobil rabitə və internet yoxdur və Bakı ən müasir vasitələrlə məlum rabitə və internet şirkətlərinin telekommunikasiya avadanlıqlarını sıradan çıxarır və bu məsələdə Qarabağ ermənilərini ətraf dünyadan təcrid edir, “sıxır...”

Yenə də reaksiya olmadı, sadəcə, tövsiyə edildi:

- Ermənistan SSR və Azərbaycan SSR vaxtlarının sərhədlərini dəqiqləşdirin və müəyyənləşdirməyə başlayın.

İrəvanda da bundan qorxurlar, çünki sərhədləri tanımaqla Ermənistan hələ 1988-ci ildə Azərbaycan üçün qazdığı quyuya özü düşür.

Ötən həftənin cümə günü İrəvanda əsəblər tarıma çəkildi və dözmədi, aydın oldu ki, Bakı ilə söz oyunu oynamağın ümumiyyətlə yeri deyil. Xankəndi məsələsi isə artıq qapanıb!

Nikol Paşinyan parlamentdəki çıxışında Azərbaycanın Eyvazlı və Çayzəmi kəndlərinin adlarını elə Azərbaycan toponimində səsləndirdi, İran-Ermənistan yolunun 21 km-lik kəsimini Azərbaycanın suveren ərazisi kimi tanıdı. Bu tanımalar isə davam edəcək.

İrəvanda və Moskvada dərk edilməlidir ki, rəsmi Bakı müharibədə uduzan tərəfin kaprizlərinə dözmək fikrində deyil. Öü də bundan sonra istənilən təxribatlara, hörmətsizliklərə və s. hallara ən ağır cavablar veriləcək, hətta antiterror əməliyyatlarına qədər!

***Rövşən RƏSULOV***

# ATƏT sədri: “Əməkdaşlıq Cənubi Qafqazda davamlı sülh və inkişaf üçün vacibdir”



“Gürcüstan, Ermənistan və Azərbaycan arasında əməkdaşlıq Cənubi Qafqazda davamlı sülh və inkişaf üçün vacibdir”. SİA xəbər verir ki, bunu ATƏT-in fəaliyyətdə olan sədri Ann Linde təhlükəsizlik məsələləri üzrə illik konfransda deyib.

O qeyd edib ki, 2020-ci ildə əldə olunmuş atəşkəs ikinci Ermənistan-Azərbaycan Qarabağ müharibəsinə son qoyub və ATƏT regionda öz səylərini bərpa etmək üçün bu məqamdan istifadə etməlidir.

ATƏT sədrinə görə, qalan problemlərin uzunmüddətli həllini tapmaq çox vacibdir.

Gürcüstan, Ermənistan və Azərbaycan arasında əməkdaşlığın vacibliyini vurğulayan Linde bildirib ki, əməkdaşlıq məsələləri infrastruktur, rabitə və ətraf mühit kimi sahələri əhatə edə bilər: “Mənim xüsusi nümayəndəm hər üç ölkə ilə əməkdaşlıq edir və biz tərəflərin konstruktiv yanaşmasını qiymətləndiririk”.

# Ukraynanın portalında Ermənistan tərəfindən əsir və ya girov götürülmüş azərbaycanlılar barədə məqalə dərc edilib

Ukrayna xəbər portalında Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində itkin düşən və ya girov götürülən azərbaycanlılar haqqında analitik məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, 30 Avqust - Beynəlxalq İtkinlər Günü münasibətilə Azərbaycanın Ukraynadakı səfirliyinin təqdimatı əsasında “podrobnosti.ua” saytında dərc olunan məqalədə oxuculara Ermənistan tərəfindən əsir və ya girov götürülmüş minlərlə soydaşımızla bağlı faktlar təqdim edilib, şahidlərin fikirlərinə yer verilib.

Məqalədə bildirilib ki, Ermənistan-Azərbaycan münaqişəsinin başa çatmasına baxmayaraq, münaqişə zamanı Ermənistan tərəfindən əsir və ya girov götürülmüş minlərlə soydaşımızdan 3890 nəfəri hələ də itkin düşmüş şəxs kimi qeydiyyatdadır. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü zamanı işğalçı ölkə tərəfindən beynəlxalq humanitar hüququn tələbləri kobud şəkildə pozulub. Mülki əhali qorunmayıb, əksinə, onlar girov götürülüb. Bir çox hallarda əsir və girovlara ağlasığmaz işgəncələr verildikdən sonra onlar öldürülüb və işgəncələrin izlərinin itirilməsi məqsədilə onların meyitləri belə Azərbaycan tərəfinə təqdim edilməyib.



НОВОСТИ

**Азербайджанские пропавшие без вести лица и заложники - гуманитарная проблема международного масштаба**

30 августа 2021 09:00 по материалам: Подробности

Фото: азербайджанские пропавшие без вести лица и заложники

Генеральная Ассамблея ООН своей резолюцией 65/209 от 21 декабря

“İnsanlığa qarşı ən ağır cinayətlərdən biri Azərbaycanın Xocalı şəhərində törədilib. Ermənistan silahlı qüvvələri tərəfindən Xocalının işğalı zamanı öldürülən 613 sakindən 63-ü azyaşlı, 106-sı qadındır. Səkkiz ailə tamamilə məhv edilib, 76-sı uşaq olmaqla 487 nəfər yaralanıb. Hazırda 36 uşaq və 65 qadın olmaqla, 196 Xocalı sakini Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında itkin kimi qeydiyyata alınıb. Ermənistan silahlı qüvvələri tərəfindən Xocalıda 196 nəfərdən başqa, 95 nəfərin, o cümlədən 16 uşaq və 22 qadının girov götürüldüyünə dair sübutlar var”, - deyə məqalədə vurğulanıb. Yazıda mülki şəxslərimizə qarşı erməni vəhşiliyi açıq-aşkar göstərilib.

# Türkiyə və Azərbaycan küllərindən yenidən doğdu”



“Birinci Dünya müharibəsində məğlubiyyətə uğrayan Osmanlı imperiyasının çöküşündə, türk etnosunun tamamilə yox olmasında daxili və xarici qüvvələrin kəsişən maraqları mövcud idi. Daxildə ermənilər və yunanlar yaranmış əlverişli şəraitdən istifadə edərək öz və xarici ölkələrin maraqlarını təmin etməyə çalışır, onların dəstəyi ilə Osmanlı imperiyasının torpaqları hesabına dövlət qurmaq xülyasına düşmüşdülər. Vəziyyət o dərəcədə kritik bir həddə çatmışdı ki, ölkə ərazisinin əksər hissəsində xarici dövlətlərin bayraqları qaldırılmışdı. Belə bir çətin və tarixi şəraitdə böyük türk etnosunun iradəsini əks etdirən, hər bir türkü ətrafında birləşdirməyi bacaran, onu mübarizəyə, savaşa ruhlandıran liderə ehtiyac var idi. Bu insan “Bayraqları bayraq edən üzərindəki qandır” deyərək xalqı Vətənin müdafiəsinə səsləyən, onu məhv olmaqdan qurtaran, bu səbəbdən də haqlı olaraq Qurtuluş adlandırılan savaşa öndərlik edən böyük lider və sərkərdə Mustafa Kamal Atatürk oldu”. Bu fikirləri SİA-ya açıqlamasında politoloq Şəbnəm Həsənova deyib.



Politoloq düşünür ki, Türkiyənin Azərbaycana olan münasibəti dövlət olaraq ölkənin rəsmi şəxslərinin hər bəyanatında ifadə olunursa, sadə xalqın, cəmiyyətin Azərbaycana olan səmimi dəstəyinin və sevgi ifadəsinin təzahürü cənab Prezident İlham Əliyevin “CNN Türk” televiziya kanalına verdiyi müsahibəsi zamanı müxbirin “Allah bir daha acılar yaşatmasın. Amma nə olsa, yenə də yanınızda olacağıq” sözlərində əks olunub: “Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin “Bir millət, iki dövlət” və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir” kəlamları tarixin ən dar məqamlarında, ən çətin günlərində belə öz sözünü deyir. Ulu Öndərlərin siyasətlərinin davamçıları Prezident İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan da atdığı hər addımda bu iki dövlət adamlarının ideallarına sadiqdirlər. Hər iki böyük siyasətçi tarixi ədaləti, beynəlxalq hüququ rəhbər tutaraq ortaq qərarlar alır, sinxron addımlar atırlar. Dünyada bizə qarşı olan türkofobiya, azərbaycanofobiya, islamofobiya kimi bədnam əməllərin önündə sinələrini sipər edirlər. Bununla yanaşı, Azərbaycan və Türkiyə bütün region ölkələri ilə qarşılıqlı maraq kontekstində münasibətlər qurur, heç bir dövlətə qarşı ərazi iddiası ilə çıxış etmir, əməkdaşlıq təklif edir, Ermənistana da konstruktiv mövqe sərgilədiyi müddət ərzində reallaşdırılacaq layihələrdən yararlanmaq fürsəti tanıyır”.

Ş.Həsənova vurğulayıb ki, bu baxımdan da Zəngəzur dəhlizi bölgə ölkələri üçün yeni imkanlar yaradacaq: “Türkiyə öz mallarını Orta Asiyaya daha qısa və alternativ yolla daşıya biləcək ki, bu da Avrasiyanın yeni bir nəqliyyat layihəsinə çevrilə bilər. Ermənistan bundan yararlansa blokadadan çıxar, dünyaya yeni bir inkişaf pəncərəsi açar və tarix boyu bu pəncərədən baxa bilər. Türk xalqının döyüşkənliyi, Vətən sevdası tarix boyu dəfələrlə sübut olunub. Qurtuluş savaşında Türkiyə küllərindən yenidən doğdu, Azərbaycan xalqı da 44 günlük Vətən savaşında yenidən doğuldu. 44 günlük müharibədə bütün dünya Türkiyə ilə Azərbaycan arasında qardaşlıq münasibətlərinin şahidi oldu. Azərbaycan xalqı da çox gözəl gördü ki, onun əsl dostu, qardaşı kimdir. Türkiyə və Azərbaycan qardaşlıqlarını əməldə sübut ediblər. Qazi Mustafa Kamal Atatürkün başçılığı altında Türkiyə Ordusunun yazdığı qəhrəmanlıq dastanının, Zəfərinin bu il 99-cu ildönümüdür. Dost, qardaş ölkəni, eyni kökdən, eyni soydan olduğumuz türk xalqını, Türkiyəmizi Zəfər Bayramı münasibətilə səmimi qəlbdən təbrik edirik”.

***Aysel Məmmədova***

# Şuşa dünyanın ən gözəl şəhəri olacaq



**Həmid Pənahov,**
**YAP Qazax rayon təşkilatının sədri**

“Mən demişəm ki, Şuşa nəinki Azərbaycanın, dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəkdir və buna nail olacağıq, 100 faiz”. Qalib liderimiz Prezident İlham Əliyev martın 16-da Şuşa şəhərində dediyi bu sözlər nəinki şuşalıların, bütün Azərbaycan xalqının ürəyinə su səpdi. Və bu gün - avqustun 29-da Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva ilə Şuşa şəhərinə səfəri zamanı isə qısa müddət ərzində böyük işlər görüldüyünün şahidi olduq.

Bəli, dövlət başçısı Şuşada Vaqif Poeziya Günlərinin açılış mərasimindəki çıxışında şəhərin bərpası istiqamətində görülən işlərdən danışarkən bildirib ki, Şuşanın bərpası yanvarın 14-dən başlanmışdır və qısa müddət ərzində böyük işlər görüldü: “İlk növbədə, yol çəkildi. İndi gəldiyiniz Zəfər yolu nə vəziyyətdə idi biz onu yanvarın 14-də gördük. Biz Füzulidən təqribən iki saat yarıma-üç saata gəldik. Şaxtalı, qarlı hava idi, yol da yox idi, bir cığır idi, üstü buz, palçıq. İndi isə artıq asfalt yol tikilib və bu, elə Zəfər yoludur. Magistral yol da çəkilir. Füzuli şəhərindən tunellər daxil olmaqla, magistral yol tikilir, daha qısa yol olacaq”.

Dövlətimizin başçısı yanvar ayında səfəri zamanı verdiyi tapşırıqların 7 ay ərzində yerinə yetirildiyini deyərək düşmənin Şuşanı tərk edərkən şəhərin bütün kommunikasiya xətlərinin, tarixi abidələrini dağıtmasına baxmayaraq hər şeyi bərpaedildiyini bildirməklə düşmənə növbəti zərbəedici mesajını verdi: “Şuşanın elektrik təsərrüfatı bərpa edildi, buraya yüksəkgərginlikli xətlər Füzulidən çəkildi, yarımstansiya tikildi. Yəni, Şuşanı elektriklə təmin etmək başlıca vəzifələrdən biri idi. Düşmən Şuşanı tərk edərkən Şuşanın su xətlərini partlatmışdı. Şuşaya suyun verilməsini biz bərpa etdik. İndi iki mənbədən Şuşaya su gəlir. Şuşanın tarixi abidələrinin bərpasına start verildi. Vaqifin məqbərəsi artıq bərpa edildi. Ermənilər tərəfindən dağıdılmış Vaqifin büstü bərpa edildi, dünən onun ikinci açılışı olmuşdur. Üç məsciddə təmir-bərpa işləri gedir. Yuxarı Gövhərağa məscidinin təmiri demək olar ki, bitmək üzrədir. Saatlı və Aşağı Gövhərağa məscidlərinin təmiri ilə bağlı göstərişlər verildi. Bu məscidlərin təmirini yenə də Heydər Əliyev Fondu öz üzərinə götürmüşdür”.

Prezident qeyd edib ki, Natəvan bulağı bərpa edildi, indi su gəlir. Ermənilər 17 bulağın 17-sini də qurutmuşdular: “Əgər bu, erməni şəhəri idisə, nə üçün siz bu bulaqları qurudursunuz? Ondan sonra “Xarıbülbül” oteli istifadəyə verildi, artıq may-iyun aylarında ilk qonaqlarını qəbul etdi və digər addımlar atıldı”.

Bəli, bu gün qərəzli, qərəzsiz, məqsədli, məqsədsiz, fərq etməz - dünya mediasının səhifələrinin iki qəhrəmanı var, bir tərəfdə miskin, məğlub və rəzil duruma düşmüş, vətəndaş müharibəsi astanasında olan, ordusunu və bütün hərbi vasitələrini itirib ağ bayraq qaldırmış Ermənistan, digər tərəfdə isə qalib, bölgədə şərtləri diqtə edən, möhkəm daxili siyasi sabitliyi, ordu-xalq və dövlət birliyi tam mənada təmin edilmiş, 28 illik işğala son qoyaraq hazırda təcavüzün və barbarlığın nəticələrini aradan qaldırmaq, vəhşicəsinə dağıdılıb talan edilmiş əraziləri yenidən dirçəltməkdə olan Azərbaycan! Bax, dirçəliş budur.

Dövlət başçımızın dediyi kimi: “Bu gün Şuşa artıq dirçəlir və Şuşanın dirçəlməsi üçün əməli addımlar atılır”.

# “Minlərlə şəhid ailəsinin və qazinin mənzil şəraiti yaxşılaşdırılıb”



“Azərbaycan dövləti hər zaman şəhid ailələrinə və müharibə əlillərinə xüsusi diqqətlə yanaşır. Prezident İlham Əliyevin apardığı uğurlu siyasət kursu nəticəsində şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində bütün lazımi addımlar atılır. Şəhid ailələrinin və müharibə əlillərinin sosial təminatı, postmüharibə dövründə sosial dəstək, məşğulluq, mənzil, fərdi ev və avtomobil təminatı istiqamətində mühüm işlər həyata keçirilir”. SİA-nın verdiyi məlumata görə, bu fikirləri yap.org.az saytına açıqlamasında Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü Azər Badamov deyib.

Onun sözlərinə görə, dövlətimiz bu siyasəti özü üçün prioritetlərdən biri kimi seçib, şəhid ailələri və müharibə əlillərinin mənzil-məişət problemlərinin həlli, onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən işlər daim yüksələn dinamika üzrə gedir: “Vətən müharibəsindən ötən dövr ərzində ölkə Prezidenti dəfələrlə şəhid ailələri və qazilərlə görüşüb, onların sosial problemlərinin həlli ilə bağlı tədbirlər həyata keçirilib. Avqustun 28-də şəhid ailələrinə, müharibə əlillərinə və Vətən Müharibəsi Qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimindəki çıxışında Prezident İlham Əliyev bildirdi ki, “bu günə qədər dövlət siyasəti olaraq şəhid ailələri, müharibə əlilləri üçün çox böyük işlər görülmüşdür. Onu demək kifayətdir ki, bu kateqoriyadan olan 10 minə yaxın insan dövlət tərəfindən mənzillərlə, fərdi evlərlə təmin edilmişdir. Təkcə keçən il 1572 mənzil verilmişdir, bu il 3 minə yaxın mənzil veriləcəkdir və beləliklə, növbədə duran vətəndaşların problemi öz həllini tapacaq. Eyni zamanda, bu gün 50 avtomobil təqdim ediləcək. Bu günə qədər verilən maşınların sayı 7 mini ötüb, daha doğrusu, 7200-dür”.

Göründüyü kimi, aparılan uğurlu fəaliyyət nəticəsində minlərlə şəhid ailəsinin və qazinin mənzil şəraiti yaxşılaşdırılıb. Ən əsası bu proses davamlıdır və qarşıdakı dövrdə də İkinci Qarabağ müharibəsində qəhrəmanlıq göstərmiş və Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülmüş şəxslər də mənzillərlə təmin ediləcəklər. Bununla bağlı cənab Prezidentimiz müvafiq Sərəncam imzalayıb. Bu, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevlə xalq arasındakı birliyin, bağlılığın, eyni zamanda, yüksək əzm və həmrəyliyin göstəricisidir””.

# DİN toylarla bağlı qaydaları açıqladı

**Daxili İşlər Nazirliyi ölkədə toy-nişan mərasimlərinin keçirilməsi ilə bağlı əhaliyə xəbərdarlıq edib. Nazirlikdən SİA-ya verilən məlumatda bildirilir ki, sentyabrın 1-dən başlayaraq pandemiya şəraitində toy, nişan, ad günü və digər şənlik mərasimlərinin təşkili və keçirilməsi ilə bağlı yeni qaydalar müəyyən olunub.**



Təşkil edildiyi yerdən asılı olmayaraq (kafe, restoran, şadlıq sarayı, həyət, məğar və s.) şənlik mərasimləri 150 nəfərədək şəxsin iştirakı ilə keçirilə bilər. Şənlik mərasimlərində iştirak edən yaşı 18-dən yuxarı bütün qonaqların COVID-19 pasportu olmalıdır.

Şənlik mərasimlərinə gələn qonaqlar üçün tənəffüs yollarını qoruyan fərdi vasitələrdən məcburi istifadə tələb olunmur. “icaze.e-gov.az” portalında qeydiyyatdan yalnız ictimai iaşə müəssisələrində təşkil olunan şənlik mərasimləri keçirilməlidir.

# "Prezidentin işğaldan azad olunan torpaqlara hər səfəri qürurvericidir"



**"Hərbi əməliyyatların bitməsindən sonra Prezident İlham Əliyevin mütəmadi olaraq işğaldan azad edilmiş rayonlara səfər etməsi dövlət başçısının bu məsələlərə nə dərəcədə həssas yanaşdığının sübutudur". Bu fikirləri "SƏS" qəzetinə açıqlamasında Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, millət vəkili Məşhur Məmmədov deyib.**

M.Məmmədov Azərbaycanın dövlət başçısının işğaldan işğaldan azad olunmuş rayonlara səfərləri və ən əsası, bu səfərlər zamanı həmin ərazilərdə aparılan quruculuq işləri çərçivəsində inşa edilən yeni strateji obyekt və müəssisələrin təməlinin dövlətimizin başçısı tərəfindən qoyulması həm siyasi, həm iqtisadi, həm də mənəvi cəhətdən mühüm əhəmiyyət kəsb etdiyini deyib: "Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın avqustun 29-da Şuşaya növbəti səfər etməklə bu ərazilərin Azərbaycana aid olduğuna, xalqımızın bu torpaqlara artıq əbədi döndüklərinə dair növbəti dəfə bütün dünyaya açıq şəkildə mesaj ünvanlamış oldular. Görülən işlərin, həyata keçirilən layihələrin siyasi və iqtisadi əhəmiyyəti öz yerində, ancaq Ermənistanda revanşist qüvvələrin bəyanatları, çağırışları da Azərbaycan Prezidentinin diqqətindən kənarda qala bilməz. Və bu səfərlə bir daha dövlət başçısı işğalçı Ermənistana düz yola gəlməyə, bundan sonra da 44 günlük müharibədən bir nəticə çıxırmasalar, növbəti "dəmir yumruğun" zərbəsi daha ağır olacağını və xam xəyallar qurmaqdan çəkinməyə çağırıb. Dövlətimizin başçısı bildirib ki, bu gün Şuşa artıq dirçəlir: "Bu gün Şuşa artıq dirçəlir və Şuşanın dirçəlməsi üçün əməli-praktiki addımlar atılır. Müharibədən sonra mən ilk dəfə Şuşaya 14 yanvar, bu ilin yanvarın 14-də gəlmişdim. Bu tarix də təsadüfən seçilmədi. Çünki ondan, o tarixdən 39 il əvvəl burada Ulu Öndərin iştirakı ilə Vaqifin məqbərəsi açılmışdı və məhz 14 yanvarda mənim bura gəlməyimin çox böyük rəmzi mənası var idi və ilk səfərimdə buraya gəldim və ilk göstərişlərdən biri də o oldu ki, Vaqifin məqbərəsi bərpa edilsin, çünki vandallar bu məqbərəni dağıtmışdılar, sökmüşdülər. İçəridəki Vaqifin barelyefini sökmüşdülər, sinə daşını sökmüşdülər. Yəni, onlara xas olan vandalizm törətmişdilər, necə ki, bütün başqa azad edilmiş torpaqlarda biz bunun şahidiyik və məqbərənin bərpasını Heydər Əliyev Fondu öz üzərinə götürdü və bu gün biz bu məqbərənin önündə Vaqif poeziya günlərinə start veririk. Vaqif poeziya günləri də bərpa edildi, Xarıbülbül festivalı da bərpa edildi, bu ilin may ayında biz çox böyük coşqu ilə bu festivalı keçirdik və bu tarixi bərpa etdik".

M.Məmmədov onu da vurğulayıb ki, dövlət başçısı nəyi, nə vaxt, necə etməyi ona görə dəfələrlə vurğulayıb ki, çünki hər bir sözünü arxasında real işlər olur: "Şuşanın bərpası ilə bağlı ilk səfərim çərçivəsində bütün lazımi göstərişlər verildi və yanvar ayından bu günə qədər, 7 ay ərzində artıq çox böyük işlər görülüb və Şuşaya ikinci-üçüncü dəfə gələnlər bunu görür. Bəli, şəhər hələ ki, dağılmış vəziyyətdədir. Çünki ermənilər nə qədər çalışalar da, yenə də Şuşanı erməni şəhəri kimi təqdim edə bilmədilər və əgər bu, erməni şəhəri idisə, niyə belə vəziyyətdə idi, niyə dağılmış vəziyyətdə idi, niyə bir dənə bina tikilməyib? Üç-dörd erməni məmurunun yeni villalarından başqa bir dənə də yeni bina tikilməyib. Köhnə binalar hamısı dağıdılıb, tarixi binalar dağıdılıb və Şuşanın bərpası 14 yanvardan başlanmışdır və qısa müddət ərzində böyük işlər görüldü. İlk növbədə, yol çəkildi. İndi gəldiyiniz Zəfər yolu nə vəziyyətdə idi biz onu 14 yanvarda gördük. Biz Füzulidən haradasa iki yarım-üç saata gəldik. Şaxtalı, qarlı hava idi, yol da yox idi, bir cığır idi, üstü buz, palçıq. İndi isə artıq asfalt yol tikilib və bu, elə Zəfər yoludur. Magistral yol da çəkilir. Füzuli şəhərindən tunellər daxil olmaqla, magistral yol tikilir, daha qısa yol olacaq. Şuşanın elektrik təsərrüfatı bərpa edildi, yüksəkgərginlikli xətlər Füzulidən gətirildi bura, yarımstansiya tikildi, yəni Şuşanı elektriklə təmin etmək başlıca vəzifələrdən biri idi. Düşmən Şuşanı tərk edərkən Şuşanın su xətlərini partlatmışdı, Şuşaya suyun verilməsini biz bərpa etdik. İndi iki mənbədən Şuşaya su gəlir. Şuşanın tarixi abidələrinin bərpasına start verildi. Vaqifin məqbərəsi artıq bərpa edildi. Ermənilər tərəfindən dağıdılmış Vaqifin büstü bərpa edildi, dünən onun ikinci açılışı olmuşdur. Üç məsciddə təmir-bərpa işləri gedir. Yuxarı Gövhər Ağa məscidinin təmiri demək olar ki, bitmək üzrədir. Saatlı və Aşağı Gövhər Ağa məscidlərinin təmiri ilə bağlı göstərişlər verildi. Bu məscidlərin təmirini yenə də Heydər Əliyev Fondu öz üzərinə götürmüşdür. Natəvan bulağı bərpa edildi, indi su gəlir. Ermənilər 17 bulağın 17-sini də qurutmuşdular. Əgər bu, erməni şəhəri idisə, nə üçün siz bu bulaqları qurudursunuz? Ondan sonra "Xarıbülbül" oteli istifadəyə verildi və artıq may-iyun aylarında ilk qonaqlarını qəbul etdi və digər addımlar atıldı. Ermənilər tərəfindən gülləboran edilmiş dahi şəxsiyyətlərimizin - Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri gətirildi və mənim tərəfimdən mərkəzi meydanda qoyuldu və dünən Şuşanın dirçəlişinin növbəti mərhələsi idi. Qeyd etdiyim kimi, Vaqifin məqbərəsi, Vaqifin büstü yenidən açıldı, Üzeyir Hacıbəylinin abidəsi yenidən qoyuldu, onu da mənfur düşmən dağıtmışdı. Üzeyir Hacıbəylinin dağılmış evinin bərpası ilə bağlı göstəriş verildi".

"Bir sözlə, dövlət başçımızın dediyi kimi: "Ədaləti bərpa etmək üçün fədakarlıq göstərmək lazımdır. Bu gün biz hamımız ürəyimizdə deyirik və açıq deyirik ki, bəli, ədalət var, ədalət bərpa edildi, biz bu gün Şuşadayıq və bundan sonra Şuşada əbədi yaşayacağıq. Noyabrın 8-də Azərbaycan xalqına Şuşa müjdəsini verərkən demişdim ki, Şuşa artıq azaddır, bu, həqiqətdir. Biz azad Şuşada yığışmışıq. Demişdim ki, biz Şuşaya qayıtmışıq. Bu da həqiqətdir. Festivallar, poeziya günləri, mədəni tədbirlər və bir çox başqa tədbirlər artıq keçirilir və keçiriləcəkdir. Demişdim ki, Şuşanı biz dirçəldəcəyik. Bu da baş verir, biz Şuşanı dirçəldirik. Yaşasın Şuşa! Yaşasın Qarabağ! Yaşasın Azərbaycan!",- deyən millət vəkili Məşhur Məmmədov bildirib ki, Azərbaycan rəhbərinin siyasi iradəsi, verdiyi vədlərlə əməllərinin vəhdəti onu deməyə əsas verir ki, çox keçməyəcək, işğaldan azad edilmiş torpaqlara həyat qayıdacaq, bu ərazilər yenidən çiçəklənəcək, bura təkcə ölkənin deyil, regionun ən inkişaf etmiş məskənlərindən birinə çevriləcək.

***RƏFİQƏ KAMALQIZI***

# "KTMT Əfqanıstana ordu göndərməyəcək"



Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı Əfqanıstana ordu göndərmək niyyətində deyil, bu barədə KTMT baş katibi Stanislav Zas "Mir 24" telekanalının efirindən bildirib. Onun sözlərinə görə, bununla bağlı narahatçılığa heç bir əsas yoxdur: "Əfqanıstanda vəziyyət daha da pisləşir. Fəlakətli olduğunu deməyəcəyəm, yox, amma oradakı vəziyyət təbii ki, çox ciddi narahatlıqlar yaradır. Tacikistan-Əfqanıstan sərhədinin təhlükəsizliyinin təmin edilməsinə gəlincə, dəqiq olaraq Tacikistana yardım göstərilməsinin zəruriliyi barədə aydın fikir var".

Hazırda Tacikistan-Əfqanıstan sərhədini gücləndirmək üçün KTMT-nin dövlətlərarası hədəf proqramı hazırladıqlarını bildirən, Zas bir daha KTMT-nin yalnız müdafiə xarakterli hərbi-siyasi təşkilat olduğunu xatırladıb. "KTMT yalnız məsuliyyət zonasında kollektiv müdafiə qüvvələrindən istifadə edə bilər". Deyim ki, buna da KTMT baş katibi Stanislav Zas bildirib.

***Ağasəf Babayev***

# "Erməni təxribatları heç də uzun çəkə bilməz"



"44 günlük Vətən müharibəsində Azərbaycan parlaq qələbə qazanaraq bölgədə yeni geosiyasi reallıqlar yaratdı. Yeni yaranmış reallıqlara uyğun da yeni əməkdaşlıq platformaları təklif olundu. Eyni zamanda, 10 noyabr 2020-ci il tarixli imzalanan üçtərəfli bəyanat və ondan irəli gələn 11 yanvar 2021-ci il tarixli sənədə əsasən kommunikasiyaların açılması, xüsusən də, "Zəngəzur dəhlizi"nin açılması, sərhədlərin delimitasiyası və demarkasiyası işləri aparılmalıdır". Bunu SİA-ya açıqlamasında millət vəkili Cavid Osmanov deyib.

Onun sözlərinə görə, Ermənistanda Vətən müharibəsindən sonra baş verən siyasi, iqtisadi, sosial, hərbi və digər sahələrdə hökm sürən böhran və bu böhranın günbəgün dərinləşməsi Ermənistanda mövcud ictimai siyasi vəziyyətin nə qədər ağır olduğunu bir daha nümayiş etdirir: "Eyni zamanda, Ermənistan sərhədlərin delimitasiyası və demarkasiyası işlərinə süni əngəllər törətməkdə davam edir. Azərbaycan-Ermənistan dövlət sərhədi boyunca Ermənistan tərəfindən törədilən təxribatlar, kommunikasiyaların açılmasına süni maneələrin törədilməsi, əlbəttə ki, Ermənistanın daxilindəki vəziyyətin nə qədər acınacaqlı olduğunu göstərir. İlk növbədə, Ermənistandakı daxili vəziyyətdən erməni xalqının bu təxribatlara, yəni sərhəddə baş verən hadisələrə köklənməsinə istiqamətlənir. Digər bir tərəfdən əlbəttə ki, Ermənistana müəyyən dairələr hələ də stimul verməkdədir. Zaman-zaman artıq keçmişdə qalmış terminləri ortalığa atmaqla çalışırlar ki, öz geosiyasi maraqlarını həyata keçirsinlər. Amma artıq Azərbaycan bölgədə yeni reallıq yaradıb və bu reallığa uyğunda Cənab Prezident, Müzəffər Ali Baş Komandanımızın da qeyd etdiyi kimi, Ermənistan istəsə də, istəməsə də üçtərəfli bəyanatın icrası təmin olunacaq, "Zəngəzur dəhlizi" açılacaq, sərhədlərin delimitasiyası və demarkasiyası həyata keçiriləcək. Bu gün Ermənistanın yeganə çıxış yolu da məhz Azərbaycanla sülh müqaviləsi imzalamaqdan keçir. Bu günlərdə erməni təxribatlarının qarşısını almaq və Azərbaycan bir daha Ermənistana öz gücünü göstərmək üçün Gorus-Qafan yolunu bağlanması kifayət etdi ki, Ermənistanda ümumilikdə yol-nəqliyyat infrastrukturu tamamilə iflic vəziyyətinə düşsün".

Mövcud reallıqlardan çıxış edən millət vəkili qeyd etdi ki, Ermənistanın bu gün yeganə çıxış yolu məhz Azərbaycanla sülh müqaviləsi imzalamaq, Azərbaycanın beynəlxalq hüquq çərçivəsində tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü tanımaq və ondan sonra Azərbaycandan kommunikasiyaların açılmasını xahiş etmək: "Düşünürəm ki, bugünkü təxribatların törədilməsi birbaşa Ermənistanın bu gün ki ağır, rəzil durumda olmasının təzahürüdür. Yəni Paşinyanın çıxılmaz durumda olduğunun bir təzahürüdür və onların növbəti erməni hiyləsidir. Bununla sərhədlərin delimitasiya və demarkasiyasına, kommunikasiyaların açılmasına süni əngəllər törətmək məqsədi daşıyır. Ancaq bu kimi erməni təxribatlar heç də uzun çəkə bilməz. Azərbaycan güclü, qüdrətli dövlətdir. Onlar dəmir yumruğun dadını artıq 44 gün ərzində dadıblar. Azərbaycan növbəti dəmir yumruğu işə salıb, ermənilərin başını əzməyə hazırdır və qadirdir".

***Gülyana***

# COVID-19 pasportu bu yolla yoxlanılacaq

**Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Elektron Hökumətin İnkişafı Mərkəzi (EHİM) tərəfindən "CheckApp" mobil tətbiqi istifadəyə verilib.**



Dövlət Agentliyindən SİA-ya bildirilib ki, tətbiq Nazirlər Kabinetinin Qərarı ilə nəzərdə tutulan qurum və müəssisələrdə COVID-19 pasportlarının yoxlanılması məqsədilə yaradılıb.

"CheckApp" mobil tətbiqi vətəndaşların deyil, qurum və müəssisələrin icazə.e-gov.az portalı üzərindən müəyyən edilmiş səlahiyyətli şəxslərinin istifadəsi üçün nəzərdə tutulub.

Tətbiq vasitəsilə aidiyyəti səlahiyyətli şəxs yaşı 18-dən yuxarı olan vətəndaşın ictimai iaşə müəssisələrində, mehmanxanalarda və iri ticarət mərkəzlərində, qapalı məkanda göstərilən xidmətlərdən istifadə edə bilməsi üçün onun COVID-19 pasportunu yoxlaya biləcək.

Tətbiq üzərindən vətəndaşın COVID-19 pasportu aşağıdakı 4 sadə üsuldan biri ilə yoxlanıla bilər:

**1.** Vətəndaşın COVID-19 pasportunun QR kodunu oxutmaqla;

**2.** Vətəndaşın FİN-i və doğum ili üzrə axtarış etməklə;

**3.** Vətəndaşın şəxsiyyət vəsiqəsinin seriya nömrəsi və doğum ili üzrə axtarış etməklə;

**4.** Vətəndaşın adı, soyadı, ata adı və doğum ili üzrə axtarış etməklə.

COVID-19 pasportlarının yoxlanılması üçün "CheckApp" mobil tətbiqini icaze.e-gov.az portalından yükləmək və daha ətraflı təlimat videosunda tanış olmaq mümkündür: https://youtu.be/NPyyUzJFtSo

Vətəndaşlar isə COVID-19 pasportlarına "myGov" elektron hökumət portalı və ya mobil tətbiqi, eləcə də "e-TƏBİB" mobil tətbiqi və ya its.gov.az portalı üzərindən qeydiyyatdan keçməklə baxa bilər, ehtiyac olduqda çıxarış əldə edə bilərlər.

Qeyd edək ki, yoxlama zamanı COVID-19 pasportunu elektron şəkildə təqdim edən vətəndaşlar pasportun yeni olmasına və ən son versiyanı təqdim etdiklərinə əmin olmalıdırlar. COVID-19 pasportunu elektron şəkildə təqdim etməyə çətinlik çəkən vətəndaşlar şəxsiyyət vəsiqəsi məlumatlarını (FİN, vəsiqənin seriya nömrəsi, ad, soyad, ata adı, doğum ili) təqdim edə bilərlər.

# "Prezidentin Şuşaya səfəri bütün dünyaya, o cümlədən ermənilərə növbəti mühüm mesajıdır"

**Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa şəhərinə növbəti səfəri başqa səfərlərə bənzəməz. Çünki bu səfər ayrı bir səfərdir. Qalib ordunun müzəffər sərkərdəsi özünün təməlini qoyduğu "Zəfər yolu" ilə təkcə coğrafi mənada deyil, həm də mənəviyyatımızın, qürurumuzun ucalığı olan Şuşaya bu səfərdə bir qalibiyyət özgüvənliyi yaratmaq, qurmaq, gözəlləşdirmək, Şuşanın dirçəlməsi üçün atılan əməli addımların nəticəsidir. Prezident İlham Əliyev avqustun 29-da Şuşada Vaqif Poeziya Günlərinin açılış mərasimindəki çıxışında bildirib ki, 44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir: "Bu tarix əbədi yaşayacaq. Çünki bu Qələbə tarixdə bənzəri olmayan qələbədir. Azərbaycan xalqı buna layiq idi və biz Qələbə əldə edərək düşməni öz doğma diyarımızdan qovduq, şəhərlərimizi azad etdik, doğma Şuşamızı azad etdik. Bu gün Şuşa artıq dirçəlir və Şuşanın dirçəlməsi üçün əməli addımlar atılır".**



Bəli, heç kəsə sirr deyil ki, bu gün Şuşa əməliyyatı haqqında aparıcı beynəlxalq hərbi məktəblər maraqlanır, inkişaf etmiş bir çox ölkələrin mütəxəssisləri 44 günlük Vətən müharibəsinin hər bir gününü təhlil edirlər. Çünki 44 günlük müharibənin hər bir günü qələbə, zəfər günüdür. 44 günlük Vətən müharibəsi çərçivəsində Şuşanın işğaldan azad edilməsi düşmənə vurulan ən böyük zərbə idi. Çünki mənfur düşmən hesab edirdi ki, Şuşanı azad etmək mümkün deyil və yəqin ki, müəyyən dərəcədə haqlı idi. Çünki Pənahəli xan bu şəhəri elə salmışdır ki, hər tərəfdən sıldırım qayalar və təbii landşaft Şuşanı mühafizə edir. Lakin bütün bu çətinliklərə baxmayaraq "alınmaz qala" hesab edilən Şuşa alındı. Öz dırnaqarası əməliyyatlarına "dağlarda toy" adı qoyaraq heç bir hərbi əməliyyat keçirmədən Şuşanı işğal edən ermənilərə dağlarda toy tutan, ulu öndər Heydər Əliyev məktəbinin, İlham Əliyev idarəçiliyinin yetirmələri olan gənclərimizdir. Qəhrəman Azərbaycan övladları mükəmməl hərbi əməliyyat keçirərək cəsarət, rəşadət, qəhrəmanlıq, güc, milli ruh nümayiş etdirərək Vətən sevgisi ilə Şuşanı işğalçılardan azad etmişlər və uzun fasilədən sonra noyabrın 8-də Şuşada Azərbaycan bayrağı qaldırılmışdır.

Cənab Prezidentin də qeyd etdiyi kimi, heç kim bu torpaqları bizə elə-belə verməyib, biz əzəli torpalarımızı əhəmiyyətsiz danışıqlarla yox, döyüşə-döyüşə aldıq. Bizim şəhərlərimizi məhv edən quldurları, Xocalı cəlladlarını, özündən yalançı qəhrəman düzəldən Sarkisyan-Koçaryan cütlüyünü Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Şanlı Ordumuz qəhrəmanlıq göstərərək, sıldırım qayalardan qalxaraq, yüngül silahlarla, bıçaqlarla toplara, tanklara qarşı vuruşaraq məhv etdi. Bütün dünyaya gücümüzü sübut etdik, göstərdik, düşmənin başını əzdik. Nəhayət, düşmən Müzəffər Ali Baş Komandan və onun Şanlı Ordusu qarşısında diz çökdü və kapitulyasiya aktına imza atdı.

Artıq bu gün Şuşanın dirçəlişinin növbəti mərhələsi başlayır. Prezident İlham Əliyev Şuşada Vaqif Poeziya Günlərinin açılış mərasimindəki çıxışında bir daha vurğulayıb ki, dünən Şuşanın dirçəlişinin növbəti mərhələsi idi: "Qeyd etdiyim kimi, Vaqifin məqbərəsi, Vaqifin büstü yenidən açıldı, Üzeyir Hacıbəylinin abidəsi yenidən qoyuldu, onu da mənfur düşmən dağıtmışdı. Üzeyir Hacıbəylinin dağılmış evinin bərpası ilə bağlı göstəriş verildi. Dünən Polad Bülbüloğlu ilə və onun oğlu, Bülbülün nəvəsi ilə birlikdə Bülbülün evinin açılışını qeyd etdik",-deyən Azərbaycan Prezidenti Şuşada aparılan bərpa-quruculuq işləri barədə qeyd edib ki, dünən "Qarabağ" oteli əsaslı təmirdən sonra öz qapılarını yenidən qonaqların üzünə açdığını deyərək beşulduzlu otelin yeri ilə bağlı bildirib ki, "bu yer də mənim tərəfimdən seçildi. Mənfur düşmən həmin yerdə dırnaqarası "Dağlıq Qarabağ respublikası"nın qondarma parlamenti üçün bina inşa edirdi. O da bizə sataşmaq idi. "Dağlıq Qarabağ respublikası" anlayışı yoxdur. Artıq o binanın bünövrəsi qoyulmuşdu və daş işləri artıq tamamlanmışdı. Mənim göstərişimlə bu şeytan yuvası darmadağın edildi".

Bəli, o mənfur düşmənlərin yuvaları, o cümlədən qondarma "Dağlıq Qarabağ respublikası" adlı şeytan yuvası güclü ordumuzun gücü ilə dağıdıldı. Ali Baş Komandanımız hər zaman bəyan edib ki, Azərbaycanın mövqeyində hər hansı bir dəyişiklik yoxdur, ola da bilməz, çünki biz həm tarixi ədalətə, eyni zamanda, beynəlxalq hüquqa əsaslanırıq. "Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir" fikrini bütün dünyaya bəyan edən Prezident İlham Əliyev dəfələrlə bildirib ki, heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına icazə verilməyəcək, işğal edilmiş bütün torpaqlar işğalçılardan azad olunmalı, Azərbaycan vətəndaşları öz doğma yurdlarına qayıtmalıdırlar.

Bəli, bu gün bu deyilənlər reallığa çevrilib. Vaxtilə Bakıda möhtəşəm Dövlət Bayrağı Meydanı açılanda çıxış edərkən cənab Prezident İlham Əliyev demişdi ki, gün gələcək və Azərbaycan bayrağı işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada qaldırılacaqdır. Sözü imzası qədər dəyərli olan cənab Prezident bu vədinə də əməl edərək öz xalqının ümidlərin doğrultdu, qürurlu və məğrur Azərbaycan xalqının sevgisini əbədi olaraq qazandı. İndi bütün dünya bizi qürurlu, məğrur, məğlubedilməz xalq kimi tanıyır. Çünki istər beynəlxalq müstəvidə aparılan fəaliyyət, istər iqtisadiyyatımızın hər keçən il daha da gücləndirilməsi, ümumilikdə cənab Prezident İlham Əliyevin 18 illik fəaliyyəti məhz Qarabağ zəfərinə istiqamətlənmişdi. Müharibə dövründə isə Azərbaycan bir gün belə geri addım atmadı. Şanlı ordumuz hər həftə onlarla yaşayış məntəqəsini işğalçılardan azad edirdi. Nəticədə düşmənə sarsıdıcı zərbələr endirərək 300-dən çox yaşayış məntəqəsini və Şuşanı azad etdik. Düşməni məcbur etdik və cəmi 20 gün ərzində Ağdam, Laçın və Kəlbəcər rayonlarından qoşunlarını çıxardılar.

"Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" deyən Dahi Heydər Əliyevin bu arzusunu cənab Prezident İlham Əliyev "Şuşasız işimiz yarımçıq qalar" dedi, sona qədər getdi və Şuşanı əsl sahibinə-Azərbaycan xalqına geri qaytardı. Ulu öndər Heydər Əliyevin təşəbbüsü, onun rəhbərliyi ilə inşa edilmiş Molla Pənah Vaqifin məqbərəsinin düz 39 il bundan əvvəl - 1982-ci il yanvarın 14-də Azərbaycan ziyalılarının iştirakı ilə açılışı olmuşdur. İndi isə Azərbaycanın müstəqilliyinin təxminən otuz yaşı var.

Ata vəsiyyətini yerinə yetirən Prezidenti İlham Əliyev avqustun 30-da Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə şairin doğma şəhərində yenidən təşkil olunan Vaqif Poeziya Günlərinin rəsmi açılışında çıxışı zamanı deyib ki, Vaqif Poeziya Günləri keçirilərkən atamın 59 yaşı var idi. Bu gün mənim 59 yaşım var: "Əziz dostlar, təxminən, 40 il bundan əvvəl, bax, bu yerdə atam durmuşdu, mən isə o tərəfdə durmuşdum. Şaxtalı-qarlı havada Vaqifin məqbərəsinin açılışı idi. Ondan sonra ikinci dəfə 1982-ci ilin iyul ayında - iyulun 29-da atamla bərabər ikinci dəfə Şuşaya gəlmişdim. O vaxt Vaqif Poeziya Günləri keçirilirdi".

"Bu gün isə ikinci dəfə Vaqifin məqbərəsinin açılışını biz qeyd edirik. Vaqif poeziya günləri keçirilərkən atamın 59 yaşı var idi. Bu gün mənim 59 yaşım var. Bəziləri ki, hesab edə bilər ki, bu, təsadüfdür. Ancaq mən hesab edirəm ki, burada böyük rəmzi məna var, tarix təkrarlanır. Azərbaycan tarixinin qara səhifəsi artıq arxada qaldı və yenidən biz nəfəs almağa başlamışıq", - dövlətimizin başçısı bildirib.

Beləliklə, müharibədən sonra dövlət başçısının mədəniyyət paytaxtımız olan Şuşaya növbəti səfəri, orada səsləndirdiyi mühüm fikirlər və aidiyyəti üzrə verilən tapşırıq və göstərişlərdən də tam əminlik yaranır ki, Şuşa yaxın gələcəkdə nəinki Azərbaycanın, eləcə də dünyanın ən gözəl şəhəri olacaq. Bir sözlə, Prezidentin növbəti Şuşa səfəri zamanı verdiyi mesajlar təkcə Ermənistana deyil, həm də bu ölkənin havadarlarına ünvanlanmış və Ermənistandan hansısa təxribat olacağı təqdirdə, Azərbaycan "Dəmir yumruğu"nu yenidən işə salaraq, düşmənin dərsini verəcəyini lazımı ünvanların diqqətinə çatdırmış oldu.

***SEYFƏDDİN ƏLİYEV,***
***YAP Masallı rayon təşkilatının sədri***

TƏRS BAXIŞ+ÖZƏL

# Ya işinizi görün, ya da gedin!

**Belə görünməyə başlayır ki, Azərbaycanın Qarabağa sülhməramlı kontingentini dəvət etməsindən sonra Rusiya Federasiyasının hərbi-siyasi dairələri bu məsələni tamamilə fərqli istiqamətdə anlayıblar. Hətta belə desək, onlar 10 noyabr 2020-ci ildən etibarən dəyişən situasiyanı "dondurulmuş münaqişə" qismində ya görür, ya da belə görünməsinə cəhdlər göstərirlər. Təbii ki, əgər belə bir cəhd varsa bu, ümumiyyətlə Azərbaycanın maraqlarına, cərəyan edən hadisələr fonundakı nəzərinə və s. faktorlardakı baxışlarına cavab vermir. Və əgər ruslar bunu anlamırlarsa, izah etmək çətinlik yaratmır: sülhməramlılıq Bakı üçün qan tökülməsinin qarşısının alınması üçün alətdir, vasitədir, lakin "dondurulma" kimi qavram ümumiyyətlə mövcud deyil - Qarabağın yerdə qalan hissəsi qısa müddətdə Azərbaycanın suveren əraziləri qismində reinteqrasiya olunmalıdır və bunun başqa yolu yoxdur, ola da bilməz!**




Əgər rus tərəfi sülhməramlılıq kontekstində düşünürsə ki, həmin proses dayandırılmalıdır və üstəlik dondurulmalıdır, bax, onda yumşaq desək, ciddi, özü də böyük səhvə yol vermiş olur. Sülhməramlılar ona görə Azərbaycanın ərazilərinə, Qarabağa dəvət olundular ki, reinteqrasiya prosesi qansız-qadasız, ancaq məcburi qaydada (!) üçtərəfli razılaşma kontekstindəki bəndlərlə reallaşdırılsın. Bəs biz nə görürük..?

Rusiya SM-lar və bu ölkənin Müdafiə Nazirliyinin rəsmi saytı Xankəndini "stepanakert" adlandırır, eləcə də tarxi Azərbaycan toponimlərini saxta erməni adları ilə hallandırır, Qarabağdakı quldur-separat rejiminin qəsbkar rəhbərləri ilə nazik davranır, onları günü-gündən qudurğan bəyanatlarına əhəmiyyət vermir, quldur xuntanın silahlı quldurlarını demək olar ki, qucağında bəsləyir - xeyirdirmi əcəba?!

Təbii ki, əslində, Azərbaycan ictimaiyyəti əvvəldən bu məsələdə yekdilliklə çıxış etməmişdi və indinin özündə Rusiya sülhməramlı, ya da sülhməramsız kontingentinin fəaliyyətlərinin çatacağı yekun ili - 2025-i səbrsizliklə gözləyir. Hələlik isə ruhi problemi olan hərbçimizə öz ölkəsində, Xankəndidə məhkəmə qurulur, quldur rejimin silahlıları qudurğan köpəklər təki rusların dizlərinin, burunlarının dibinə çökərək bizə atəş açır, zəmilərimizi yandırır, hətta ara-sıra pəzəvəng başlarından böyük hədələyici bəyanatlarla çıxışlar edirlər. Maraqlıdır, bəs general Muradov nə edir, ya da edə bilmir?

Rus kontingentinin generalının başı ya erməni "tutovkasını" dequstasiya etməyə qarışıb, ya da ona yuxarıdan "sus!" əmri verilib. Üstəlik, rus hərbçiləri də digər yandan bu və ya başqa istiqamətdə hərbi atış təlimləri keçirir, sanki özlərini onları buraya dəvət etmiş Azərbaycanla savaşa hazırlayırlar. Bu qədər inam və etibardan sonra bənzər addımların atılması isə ən azı hiddət yaradır, ta o vaxta qədər ki, sülhməramlılar nə etdiklərinin fərqinə vardıqlarına qədər.

Və əgər belə davam edərsə, daha onların buralarda hərlənibfırlanmalarına nə ehtiyac qalıb? Ya üzərlərinə düşən missiyalarını doğru-dürüst həyata keçirsinlər, ya da çəkilsinlər kənara və gətirdikləri yür-yüklərini, pıl-pırtlarını yığışdırıb uzaqlaşsınlar. Yəni ya işinizi görün, ya da gedin. Azərbaycan əsgəri cəmi-cümlətanı 2-cə saata hər şeyi dərhal, təmiz, səliqə ilə yoluna qoyacaq.

***Rövşən RƏSULOV***

# Əli Kərimlinin yalanlarının kölgəsinə sığınanlar....



**Və yaxud, Seymur Həzi kimi əhəmiyyətsizlər necə deyərlər "it itin ayağını tapdamaz" ortalığında...**

44 günlük Vətən müharibəsinin bitməsindən dərhal sonra sosial şəbəkələrdə qələbəmizə qarşı çirkin kampaniyalar aparan radikal müxalifət düşərgəsinin təmsilçiləri qazanılmış böyük zəfərə kölgə salmağa, ona qara yaxmağa niyyətlənmişdilər. Amma deyəsən, onlar bunun faydasız olduğunu, xalqın bu yalanlara aldanmayacağını dərk ediblər. Belə ki, Azərbaycanın Vətən müharibəsindəki qələbəsini "yarımçıq" adlandıran, ölkəmizin 30 ilə yaxın müddətdən sonra bərpa olunmuş ərazi bütövlüyünü şübhə altına almaq istəyən Əli Kərimli Ermənistanın məğlubiyyətini özünün şəxsi məğlubiyyəti kimi qəbul edərək xalqı inandıra bilmədiyi üçün əlacı ətrafında olan kütbeyinlərə çağırış edib. Çünki bu kütbeyinlər də Azərbaycanın əldə etdiyi möhtəşəm qələbəni bəzi dairələr həzm edə bilmirlər. Görünür, Əli Kərimlinin ağaları ona tapşırıq verib ki, qələbəmizə maksimum dərəcədə kölgə salsın. Və bu gün onun Koçaryanı, Sarkisyanı müdafiə etməsi və Azərbaycanın möhtəşəm qələbəsini kiçiltməyə çalışması xalqımızın böyük etirazına səbəb oldu. Çünki Əli Kərimli 1992-1993-cü illərdə hakimiyyətdə olarkən Azərbaycan torpaqlarının böyük bir hissəsini itirdi. O cümlədən onlar hakimiyyətə gəlmək üçün ermənilərlə razılıq əldə edərək, torpaqlarımızın işğal olunmasına göz yumdular. Əlbəttə, bu gün Əli Kərimlinin əlləri azərbaycanlıların qanına bulaşan Koçaryanı, Sarkisyanı müdafiə etməsi anlaşılandır. Görünür, Əli Kərimlinin tutduğu mövqe Koçaryan və Sarkisyanla üst-üstə düşür. Ona görə də onları müdafiə edir. Əli Kərimli bu açıqlaması ilə 2802 şəhidimizin ruhunu incidir, 1245 qazi olan əsgər və zabitimizin mənəviyyatına toxunmuş olur ki, bu da qəbulolunmazdır. Azərbaycan xalqı bu cür açıqlmalar verən və Vətənini satan şəxsləri lənətləyir.

## Ərəstun Oruclu: "Əli Kərimli və Seymur Həzi kimi əhəmiyyətsizlər 44 günlük qələbəni həzm edə bilməmələri "5-ci kolon" olduğunu sübut edir"

Bu günlərdə ABŞ-da yaşayan politoloq Ərəstun Oruclu "facebook" hesabında Əli Kərimli və Seymur Həzi kimi əhəmiyyətsizlərin 44 günlük qələbəni həzm edə bilməmələrini açıq şəkildə ifşa edərək bildirib ki, "5-ci kolonun" bugünkü əsas fəaliyyət istiqamətlərindən biri də təxribat xarakterli informasiyaların və dezinformasiyaların yayılmasıdır.

Eyni ilə Əli Kərimli Ermənistanın kütbeyin baş naziri Nikol Paşinyan düşüncəsində olduğunu sübut edir. Çünki bütün hallarda "5-ci kolonun" fəaliyyəti bir mərkəzdən - AXCP sədri Əli Kərimlinin vahid plan və proqram üzrə koordinasiya olunur. Qələbənin ilk günündən Əli Kərimli yalan, böhtan dolu informasiyalar yaydı. Və bu gün də Əli Kərimli, müavini Seymur Həzi və başqalarının hər gün 44-günlük müharibənin guya Rusiya ilə razılaşdırılması barədə şayiələr, böhtanlar yazmaları və ya bu gün Azərbaycanla Rusiya arasında yaşanan gərginliyin "razılaşdırılmış oyun" olması iddiaları deməleri bir daha "5-ci kolon"un xəyanətkar, dövlətə, xalqa düşmən mövqedə olduğunu sübut edir.

Ancaq bu kütbeyinlər Şuşa, Laçın Kəlbəcər məğlubiyyətinin təkcə Müsavat-AXC cütlüyünün fəaliyyətinin nəticəsi deyil, həm də bu cütlüyün Koçaryanla, Sarqsyanla rəmzi şəriklik, müştərəkliyinin yekunu olduğunu unutmamalıdır və bunu xalq unutmayıb. Ona görə də qələbəmiz həm Koçaryanda, həm Sarqsyanda, həm də 1992-ci ildə bir il hakimiyyətdə olmuş səriştəsiz, fərsiz, məsuliyyətsiz həvəskarlar korpusunda qıcıq yaradır. Çünki "5-ci kalon" məhz qaragüruhu idarə edən bir ovucun bağlı olduğu küt başlardır.

Ə.Oruclu "5-ci kolon"la bağlı statusunda bildirir: "5-ci kolonun" bugünkü əsas fəaliyyət istiqamətlərindən biri də təxribat xarakterli informasiyaların və dezinformasiyaların yayılmasıdır. Məsələn, 44-günlük müharibənin guya Rusiya ilə razılaşdırılması barədə şayiələr və ya bu gün Azərbaycanla Rusiya arasında yaşanan gərginliyin "razılaşdırılmış oyun" olması iddiaları. Hər iki halda qarşıya bir neçə məqsəd qoyulur: orduya etimadsızlıq, cəmiyyətdə inamsızlığın artırılması, vətəndaşların aldadılması və son nəticədə insanlarda özgüvən hissinin dağıdılması, xalqa, yəni ölkədə yaşayan insanlara onların heç nəyə qadir olmamasının aşılanması. Son nəticədə isə cəmiyyətdə acizlik hissinin və təslimçilik əhvalının yaradılması.

Halbuki, 44-günlük müharibədə Azərbaycan hərbi qələbəyə 3 mindən çox şəhid verməklə nail olub. Müqayisə üçün deyək ki, SSRİ Əfqanıstan müharibəsində təxminən 9 il 2 ay ərzində 15 min nəfərədək itki vermişdi. Bizim müharibə ilə paralel apardıqda bu itki azı 227 min nəfər olmalı idi. Deməli, həmin iddialar da yalandır. Beləliklə, məhz Əli Kərimli, Seymur Həzi, bir sözlə AXCP və "Milli Şura" adlandırdıqları qurum 44 günlük Vətən müharibəsinin Rusiya ilə razılaşdırılması barədə şayiələr yazırlar, yayırlar.

Bir sözlə, "5-ci kolon"un Əli Kərimli və güruhu olduğu qənaətini təsdiqlədiyi fikirlər oyuncaq müxalifət vahidlərinin kütbeyinləridir.

## Antimilli ünsürlərin dəyişməz siması: Vicdansızlıq

Bu gün 44 günlük İkinci Qarabağ müharibəsinin tariximizə yazdığı Zəfər harada yaşamasından asılı olmayaraq torpaq, Vətən sevgisini hər şeydən üstün tutan azərbaycanlılarda, dost ölkələrdə böyük sevinc, qürur hissi yaratdığı halda "sapı özümüzdən olan baltalar"ın yenə də ənənələrinə sadiqlik nümayiş etdirərək, Qələbəmizə qara eynəkdən baxmaları onların nə qədər simasız, şəxsi ambisiyalarının qulu olduğunu nümayiş etdirir. Hər zaman yazılarımızın mahiyyətində dayanan bir məqamı yenə də təkrarən qeyd etmək istərdik ki, illərdir müxalifətçilik anlayışının mahiyyətini dərk etməyən radikal ünsürlər hələ də reallıqla barışmaq istəmirlər ki, xalq onları siyasi səhnədə görmək istəmir, tarixin zibilliyinə çoxdan atıb.

Bir sözlə, bu ünsürlərin sosial şəbəkələrdə paylaşımları onların xarici himayədarlarından aldıqları sifarişlərin təqdimatıdır. Xalqa deyil, xarici anti-Azərbaycan dairələrə arxalanan, onların ssenariləri əsasında durub oturan bələlərindən ölkəmiz haqqında müsbət fikir gözləmək sadəlövhlük olar. Xalq onlara lazım olan dəyəri verib - tarixin zibilliyi. Bu qiymətdən dərs almaq əvəzinə, daha da anti-Azərbaycan təbliğatı aparmaq sağalmaz xəstəliklərinə işarədir. Həmçinin, bu xəstəliyin adı xəyanətkarlıq, mənəviyyatın itirilməsi, ən əsası satqınlıqdır. Bax, budur Ə.Kərimlinin iblis xisləti. Ancaq çi fayda ki, bu plan da baş tutmadı. Çünki satqınçılıq və xəyanətin ömrü az olur. Məgər bu reallıq dəfələrlə təsdqini tapmayıbmı?

***Rəfiqə HÜSEYNOVA***

# "Biz artıq hər şeyə inanacaq axmaqlar deyilik..."

...Ara, Nikolun təzə təyin elədiyi özü kimi bivec məmurlar, artıq biz ermənilərin əsəbi ilə oynamağa başlayıblar. Ara, bu gün bizi axmaq yerinə qoyan Ermənistan hakimiyyəti uğursuzluqlarını, səhv hesablamalarını və məğlubiyyətlərini qələbə kimi təqdim etməyə çalışdıqları zaman çox gülməli görünürlər. Yadınızda olar də...vaxtilə bizim o müdafiə nazirliyində yekəpərin biri vardı ey... Arsurun Hovannisyan. Zalımın gədəsi yalanı elə danışırdı ki, sonradan özünün də dediyinə görə, özü də az qala yalanlarına inanmaq istəyirmiş. O vaxt, 44 günlük müharibə zamanı "taktiki geriçəkilmə" deyə-deyə özü ilə birgə "məğlubedilməz erməni ordusunu" da az qalmışdı gətirib İrəvana çıxarmışdı. Amma erməni xalqı vaxtında duyuq düşdü. Arsuruna erməni millətinə xas olmayan "yalançı" ayəməsi vuraraq, onu nazirlikdən qovdu.



Deyəsən, indi də "ermənilərin əsəbi ilə oynamaq istəyən" yeni birisi peyda olub: Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan.

Deməli, ötən günlərin birində Armen erməni xalqının əsəbi ilə oynamaq istəyərək deyib ki, guya bizim Rusiya ilə strateji müttəfiq münasibətlərimiz və eyni zamanda müxtəlif strukturlar çərçivəsində dostluq əlaqələrimiz var. Armenə görə, KTMT çərçivəsində biz həm Ermənistanın, həm də Avrasiya İqtisadi Birliyi və ATƏT-in maraqlarını təbliğ etməyə çalışırıq.

Ara, beləsinə nə deyəsən? Bu gün ermənilər rusların əlindən "zəncir çeynəyir", bu isə ruslar bir yana, hələ bir onların ermənilər üçün artıq "yararsız" hala gəlmiş qurumlarını da tərifləyir. Gördük də, KTMT-nin etibarını. O vaxt 44 günlük müharibədə, erməni oğulları öləndə Putin qoşun göndərib, azərbaycanlıları vurmaq əvəzinə, Paşinyana zəng vurdu. Deyilənə görə, nikola çımxıraraq, təcili olaraq döyüşləri dayandırmaq əmri verib.

Bunu yəqin Armen Qriqoryan da eşitməmiş olmaz. Amma buna baxmayaraq, o hələ bir utanmadan, Rusiya ilə strateji əlaqələrdən danışır? Armenin Kremlin İrəvandakı "məxməri inqilab"dan sonra Nikolu hansı "gözümşıxdıya" salmasından da xəbərsiz olmaz.

İndi, onun dediyi ilə deyil axı. Armenə xatırladaq ki, onun təbliğ etdiyi rus təşkilatlarına daxil olan ölkələr, təbii ki, Ermənistan istisna olmaqla, hamısı orada öz maraqlarını təbliğ edirlər. Bu təşkilatlarda təmsil olunan dövlətlərin heç biri Azərbaycan "müqəddəs erməni torpaqlarına" "həmlə edəndə" Ermənistana yardım etmədilər. Onların heç biri köhnə prezidentimiz Serjik Sarkisyan demiş dəstəyi götürüb Ermənistana zəng çalmadı. Hələ bir üstəlik, Qazaxıstan, Belarus kimi "bizə yaxın ölkələr" Azərbaycan rəhbərini qələbə münasibətilə açıq şəkildə təbrik də etdilər.

Burada Qriqoryana anlatmaq gərək ki, bunların hamısı sənin də təmsil olunduğun hazırkı erməni hökumətinin xarici siyasətdəki uğursuzluqlarıdır. İndi sənin özünü əsl siyasətçi yerinə qoyub, rusları, onların yaratdıqları saxta təşkilatları təbliğ etməyinin heç bir mənası yoxdur. Çünki biz ermənilər artıq sənin dediyin kimi, Ermənistanın hələ də başqaları ilə hansısa müttəfiq və ya dost münasibətləri olduğunu söyləməsinə inanacaq axmaqlar deyilik

***Ağasəf Babayev***

# AÇIQLAMA: "Xarici qüvvələr Əlini vasitə kimi irəli atıblar"

**"Əlinin, ya bir qeyri "Milli Şura" fəalının bu qurumla bağlı ümidsiz proqnozlar səsləndirməsi gözlənilən idi. Əslində, bu milli olmayan saxta qurumu yaradandan Əli və onun kimilər bunun heç bir perspektivi olmayacağını yaxşı bilirdilər". Bunu "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirib.**



Onun sözlərinə görə, səs-küy salmaq, siyasi müxaliflik fonu yaratmaq, bu fonda xaricdəki ağalarının diqqətini cəlb etmək, pul qoparmaq üçün bu da bir vasitə idi: "Həmişə demişəm, yenə deyirəm, bunlar siyasətçi yox, siyasi biznesmenlər, siyasi dəllallar dərnəyidir. Toplaşıblar ora, hansı addımı atsalar daha çox pul gələcəyini müzakirə edirlər. Arada bəzi nadanları aldatmaq üçün siyasi şoular da düzəldib, bununla özlərini gündəmdə saxlamağa çalışırlar. Əslində, əvvəl gündən Cəmil Həsənli ilə Əli Kərimlinin fikirlərində tərs mütənasiblik hökm sürürdü. Hesab edirəm ki, bu da yuxarıdan gələn sifarişdir və ağaları "Milli Şura"dan nə isə gözləməyin əhəmiyyətsiz olduğunu anlayıblar və perspektivdə ona "stavka" edilməməsi qənaətinə gəliblər. Sıradan çıxarmaq üçün də xarici qüvvələr Əlini ən yaxşı vasitə kimi irəli atıblar. Qaldı bu üzdəniraq qurumun buraxılmasına, buraxılmamış nə edə bilirlər ki, buraxılanda da bir mənası olsun? Bu gün Azərbaycan cəmiyyəti kifayət qədər yetkinləşmiş cəmiyyətdir. Xalq ağı qaradan, yaxşını pisdən rahatlıqla seçə bilir. Xalq xaricdən maliyyələşən sapı bizdən olan baltaları artıq yaxşı tanıyır. 44 günlük zəfər savaşı, bu savaşda indiki iqtidarın tarixi siyasi qələbəsi kimi də qəbul edilməlidir. Xalq artıq külək istiqamətində əsmir, möhkəm dayanıb yerində, dövlətinin yolunda istənilən savaşa da hazırdır. Bunu bildiklərindən pişik kimi arxaların yerə vermək istəməsələr də, artıq kürək çoxdan yerə dəyib".

***Gülyana***

# "Yeni müharibə Ermənistanın dünya xəritəsindən yox olmasına səbəb ola bilər"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi " istiqaməti çərçivəsində hazırlanıb.*



***Rusiyalı hərbi ekspert, jurnalist, ehtiyatda olan polkovnik Mixail Xodarenko "Caliber" analitik mərkəzinə müsahibəsində Qafqazda baş verən hadisələrlə bağlı fikirlərini açıqlayıb və maraqlı məqamlara toxunub. Müsahibənin tərcüməsini oxucularımıza təqdim edirik.***

***- Federal kanallarda müxtəlif tok-şoularda 44 günlük müharibədən əvvəl, yumşaq desək, ermənipərəst mövqeyə sadiq idiniz. Ancaq artıq müharibə dövründə çıxışlarınızda Azərbaycana simpatiya aydın şəkildə müşahidə olunmağa başladı. Sizə nə təsir etdi?***

- Bu məsələlərdə simpatiya (həm də antipatiya) baxımından mən həmişə çalışıram ki, öz fikrimi elə bir şəkildə formalaşdırım ki, birmənalı şəkildə nə Bakının, nə də İrəvanın maraqlarına cavab versin. Və burada məsələ simpatiyadan uzaqdır. 44 günlük müharibə başlamazdan əvvəl, döyüşçülərin və komandirlərin döyüş və əməliyyat qabiliyyətlərini, mənəvi və döyüş keyfiyyətlərini qiymətləndirmək baxımından mən erməni tərəfinin silahlı birləşmələrinə üstünlük verdim. Bunun səbəbləri var idi.

1991-ci ilə qədər bəzən 80% i azərbaycanlılardan ibarət olan hərbi hissə və bölmələrə komandanlıq edirdim. Əsasən, bunlar rus dilini zəif bilən, mürəkkəb hərbi ixtisasları mənimsəmək üçün zəif hazırlanan (və onları mənimsəmək arzusu ilə yanmayan) kənd yerlərindən gələnlər idi. Bundan əlavə, o vaxtkı Azərbaycan cəmiyyətinin ən geniş təbəqələri arasında SSRİ Silahlı Qüvvələrində xidmət heç də populyar deyildi. Zabitlər (pilotlar, dənizçilər, raketçilər, mühəndis qoşunlarının mütəxəssisləri və s.) arasında azərbaycanlılar çox az sayda nümunələrlə təmsil olunurdu. Buna görə də Birinci Qarabağ Müharibəsi göstərdi ki, ölkə rəhbərliyinin tabeliyində olan Azərbaycan Silahlı Qüvvələri komandanlığın əmri ilə döyüş tapşırıqlarını səmərəli şəkildə yerinə yetirməyə qadir deyil.

Şəxsən mən səhv olaraq inanırdım ki, 1-ci müharibədə Azərbaycan Silahlı Qüvvələrinə xas olan çatışmazlıqlar 2-ci müharibənin başlanğıcına qədər dəyişməz qalıb. Lakin bunun belə olmadığı ortaya çıxdı. Son vaxtlar Azərbaycanın hərbi-siyasi rəhbərliyi vəziyyəti kökündən dəyişməyi (bunu mən şəxsən İlham Əliyevlə əlaqələndirirəm), döyüşə hazır bir ordu yaratmağı, müttəfiqlərin dəstəyini almağı bacardı ki, bu da indiki geosiyasi vəziyyətdə çox vacibdir.

Və bu da hörmət oyatmaya bilməz (buna görə də bu simpatiya məsələsi deyil). Bundan əlavə, İlham Əliyev bir çox müasir siyasətçilərin formalaşdırdığı formula- həllin yalnız uzunmüddətli sülh danışıqları nəticəsində əldə ediləcəyi formulunu dağıtdı. İlham Əliyev açıq şəkildə göstərdi ki, müharibə başqa vasitələrlə aparılan siyasətin davamıdır və danışıqlar zamanı nəticə əldə etmək mümkün deyilsə, problem yalnız hərbi yolla həll edilə bilər. Və bu da hörmətdən başqa bir şey doğurmur. Hər halda, bunu əməliyyat və strateji planlaşdırma sahəsində bir mütəxəssis olaraq deyirəm.





***- Rusiya bu gün Azərbaycana silah baxımından nə təklif edə bilər? Bəs Ermənistana nə təklif edə bilər?***

- Sualı belə ifadə etmək daha düzgün olardı: Bakı müəyyən növ silah satışı ilə bağlı təklif versə, Rusiyanın bu vəziyyətdə mövqeyi necə olacaq? Bu vəziyyətdə Moskva demək olar ki, bütün müasir silah və hərbi texnikanı təklif edə bilər. Amma çox güman ki, Bakı silah və hərbi texnika alqı-satqısının şaxələndirilməsi və öz hərbi sənayesinin inkişafı yolu ilə gedəcək. Azərbaycanın potensial alıcı kimi üstünlüyü ondan ibarətdir ki, Bakı silahı "real" pulla ödəməyə hazırdır.

Ermənistana gəlincə, bir çox cəhətdən Rusiyaya qarşı çox asılı münasibət göstərən, ödəmə qabiliyyəti olmayan bir ölkədir. Eyni zamanda, mənim fikrimcə, Moskva Bakı ilə İrəvan arasında onsuz da kəskin olan ziddiyyətləri dərinləşdirməyə, silah və texnika tədarük etməklə bu münaqişənin yanan oduna od vurmağa meylli deyil.

***- Ermənistanın və Azərbaycanın hazırkı hərbi potensialı barədə nə deyə bilərsiniz?***

- Çox geniş vəzifələr siyahısı üçün bu iki ölkə sadəcə müqayisə olunmazdır. Və burada vəziyyət yalnız Azərbaycanın xeyrinədir.

***- Çox güman ki, Ermənistan cəmiyyətində hökm sürən və əksər hallarda müxalifət qüvvələri tərəfindən canlandırılan revanşist hisslərdən xəbərdarsınız. Bunu necə görürsünüz və Ermənistanın yeni müharibəyə başlamaq imkanı varmı?***

- İstədiyinizi bəyan edə bilərsiniz. Həm də sonsuz olaraq revanşist hissləri inkişaf etdirmək mümkündür. Bu cür hisslərin ciddi insan və hərbi-iqtisadi potensiala söykənib qurulmaması və qisas alması üçün bir vasitənin- müasir və döyüşə hazır silahlı qüvvələrin olub-olmaması başqa məsələdir. Mən şəxsən Ermənistanın yeni müharibə aça biləcəyinə inanmıram. Yeni bir müharibə Ermənistanın dünyanın siyasi xəritəsindən yox olmasına səbəb ola bilər.

***- Müharibənin 2020 -ci ilin sentyabrında başlaması sizin üçün gözlənilən idi?***

- Müharibə gözlənilən idi. Azərbaycan Silahlı Qüvvələrinin döyüş effektivliyinin çox yüksək səviyyədə olması, əsasən, sürpriz idi və bu cür qiymətləndirmələr Azərbaycan ordusunun təlimi haqqında etibarlı məlumatların olmaması ilə əlaqələndirilirdi.

***Tərcümə: Elçin Bayramlı***

# "Nikolun aldığı müsbət siqnallara inanmayın..."

**"Əziz həmvətənlər, ey mənim ermənilərim, siz Nikolun "Türkiyə ilə müsbət siqnal mübadiləsi"nə inanmayın. Nikol anlamasa da, gərək siz anlayasınız ki, türklərin bu "oyunu" biz erməniləri yeni qarmağa "şirnikləşdirməkdən" başqa bir şey deyil".**

Deyim ki, bu fikirləri erməni "şərəfli"lərindən biri, "Mənim şərəfim var" fraksiyasından "pərvazlanıb", indi, artıq özünün "Dayanma nöqtəsi" adlı analitik mərkəzini yaradan Tiqran Abramyam özünün şəxsi "Facebook" səhifəsində yazmaqla xalqını "ayıq olmağa" çağırıb.

Tiqrana görə, türklər ermənilərə müsbət siqnalları elə-belə göndərmirlər. Guya bu siqnallarla türklər ermənilərə öz şərtlərini qəbul etdirmək istəyirlər. Məsələn, Tiqrana görə, Azərbaycanın ərazi bütövlüyünün zorla da olsa tanınması məsələsi də bu müsbət siqnallı şərtlərdən biridir.



Bundan başqa, türklərin tələblərindən biri də "erməni soyqırımı"nın beynəlxalq səviyyədə tanınması prosesinin irəliləməsindən imtina etməkdir. Yəni türklər bizdən bundan sonra "erməni soyqırımı"nı təbliğ etməməyi tələb edirlər.

Yenə də ey mənim ermənilərim, bu gün siz də mənim kimi, Türkiyənin Azərbaycanla birləşib əvvəlcədən razılaşdırılmış və aralarında bölüşdürüldüyü rolları oynadığını anlamalısınız. Amma onların bu "oyununa" Nikolun da qatılması mənim üçün hələ də müəmma olaraq qalır. Əslində, mənə görə, bu, onun siyasət adamı olmamasından da xəbər verə bilər.

Bu gün Azərbaycan Ermənistan sərhədində "təxribatlar törədir", "sərhədçilərimizi incidir"...siz başa düşün ki, bütün bunlar təkcə Türkiyə ilə razılaşdırılmır, həm də Bakı bunları həyata keçirmək üçün Ankaradan "dəstək alır".

...Ona görə də, mən sizi inandırıram, Nikolun müsbət siqnallarla bağlı dediklərinə inanıb, eləməyin. Çünki mənim yuxarıda da dediklərimə rəğmən, Ermənistan-Türkiyə münasibətlərinin mümkün normallaşmasından və ya alınan müsbət siqnallardan danışmaq tamamilə məntiqsizdir.

***Ağasəf Babayev***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

QARABAĞ AZƏRBAYCANDIR!

1 sentyabr

## Ronaldo "Mançester Yunayted"lə müqavilə imzalayıb



"Yuventus"dan ayrılan portuqaliyalı hücumçu Kristiano Ronaldo "Mançester Yunayted"lə rəsmi müqavilə imzalayıb. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, 36 yaşlı futbolçu "qırmızı şeytanlar"la 2+1 illik sözləşmə imzalayıb. "Yuventus" isə Ronaldo ilə bağlı vida mesajı yayımlayıb. Turin təmsilçisi "tvitter" hesabı vasitəsilə 36 yaşlı futbolçuya xidmətlərinə görə təşəkkür edib. Ronaldo 2018-ci ildən "Yuventus"da çıxış edirdi. Portuqaliyalı hücumçu Turin təmsilçisində 133 oyunda 101 qol vurub. "Yuventus" Ronaldonun "Mançester Yunayted"ə keçidinin detallarını açıqlayıb. "Qırmızı şeytanlar" Ronaldo üçün "Yuventus"a 15 milyon avro transfer haqqı ödəyəcək. İtaliya klubu bonus olaraq daha 8 milyon avro qazana bilər.

*Ziya Hikmətoğlu*

## Bakıdan İstanbula avtobus reysləri olacaq?



**Bakı Beynəlxalq Avtovağzalından Bakı-İstanbul-Bakı müntəzəm reyslərinin fəaliyyət ilə bağlı həqiqəti əks etdirməyən elanlar yayılıb. SİA xəbər verir ki, bu barədə Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin mətbuat katibi Nuridə Allahyarova açıqlama verib. O bildirib ki, həmin elanlarda hətta tarif qiymətinin 144 AZN olduğu qeyd edilib.**

"Bu məlumat tamamilə yanlışdır. Bakı Beynəlxalq Avtovağzal Kompleksindən İstanbula heç bir müntəzəm marşrut xətti yoxdur. Pandemiya ilə əlaqədar olaraq daxili sərnişindaşıma bərpa olunsa da, beynəlxalq sərnişindaşımanın bərpası ilə bağlı qərar verilməyib. Gürcüstan, Türkiyə və digər istiqamətlərdə hələlik avtobusla sərnişindaşıma mümkün deyil. Lakin bu il iyulun 17-də Nazirlər Kabinetinin müvafiq qərarı ilə İran üzərində keçməklə Naxçıvana avtobusla səfərlər təmin olunub. Daşıyıcılardan biri Bakı Avtovağzal Kompleksindən Türkiyəyə getmək istəyən sərnişinlərə Naxçıvan üzərindən bilet almalarını tövsiyə edib. Bildirib ki, Naxçıvandan İğdıra və Türkiyənin digər şəhərlərinə gedə bilərlər. Bu, yaxşı bir şeydir. Bizim Naxçıvan üzərindən müntəzəm marşrutlarla gediş-gəlişimizin sayı artıb. Amma, əziz sərnişinlər, Naxçıvan üzərindən Türkiyənin hansısa şəhərlərinə səfərlərin olub-olmaması ilə bağlı məlumatı verən qurum Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi deyil. Bu barədə məlumatı yalnız Naxçıvanla bağlı aidiyatı qurumun səhifəsindən, saytından öyrənə bilərsiniz. Qeyd etdiyim kimi bütün hallarda Bakıdan nə Türkiyəyə, nə Gürcüstana birbaşa belə səfərlər yoxdur".

## Şəkər xəstələri üçün hansı qidalar faydalıdır?

**"Şəkərli diabet hazırda dünyada ən çox yayılmış xəstəliklərdən hesab olunur və ümumiyyətlə götürsək, dünyada 371 milyondan çox insan bu xəstəlikdən əziyyət çəkir. Daha çox şəkərli diabet xəstəlik olaraq yox, həyat tərzi kimi qəbul edilir və əsas faktor pəhriz və idmanı göstərmək olar". Bu sözləri SİA-ya açıqlamasında sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova deyib.**

Onun sözlərinə görə, idman dedikdə fiziki aktivlik daha çox önəmlidir və sağlam həyat tərzi qaydalarına da əməl etməliyik: "Buna da biz sağlam qidalanmanı, sağlam yuxu rejimini aid edirik. Şəkərli diabet zamanı əsas problem qəbul olunan qidanın düzgün şəkildə enerjiyə çevrilməməsi və eyni zamanda, qida ilə qəbul etdiyimiz qlükozanın həzm olunması üçün mədəaltı vəzin insulini ifraz edə bilməməsi nəticəsində yaranır ki, bu problem nəticəsində də qanda şəkərin miqdarı artır. Biz bunu 1-ci, 2-ci tip şəkər xəstələrinə görə fərqləndirə bilərik. Əsasən, 2-ci tip şəkər xəstələri yaşlı və qoca insanlarda rast gəlinir. Bu insanlarda xəstəlik, əsasən, stressdən, qorxudan və qidalanma qaydalarına əməl etmədikdə yaranır. 1-ci tip isə artıq uşaqlarda, körpələrdə bəzən genetik olaraq, bəzən xəstəliklər nəticəsində gənc yaşlarda da ortaya çıxır. Bu 1-ci tip, 2-yə nisbətən daha təhlükəli hesab olunur və insulin olmazsa, yaxud kənardan dəstək almazsa, bu halda artıq orqanizmə daha çox zərər verir".

Məhsəti Hüseynova sözlərinə belə davam edib: "Ümumiyyətlə, bu xəstələr həm dərman, həm də qidaları düzgün şəkildə qəbul etməklə şəkəri normada saxlaya bilərlər. Eyni zamanda da şəkərli diabet xəstələrinin qidalanmasını mən hər zaman hamilələrin qidalanması ilə eyni dəyərləndirirəm. Çünki hamilələr də, şəkərli diabet xəstələri də gün ərzində 5-6 dəfə, ara-sıra, az-az qidalanmalıdır və üç dəfə əsas yemək olmaqla digərləri nəzərdə tutulur".

"Daha sonra qida qəbulu zamanı yeməyin miqdarı az olmalıdır. Bir yemək prosesi yarım saat müddətinə davam etməlidir. İlk qəbul olunanda 15 dəqiqədə doyma hiss olunmur. Adətən, çox yanlışa yol verirlər, çünki acdılarsa, birdən-birə çox yeməyə başlayırlar və 15 dəqiqəyə həddindən artıq qida qəbul olunur və ona görə də sonradan həzm prosesində problemlər yaranır".

"Ümumiyyətlə, nələrdən uzaq durmalıdırlar onu deyək. Kartofdan, buğdadan, arpadan hazırlanan yeməklərdən, un məmulatları, şirniyyat bu xəstələr üçün zərərli hesab olunur. Bundan başqa paketlənmiş qidalar, içkilər, qazlı spirtli içkilər həddindən artıq zərərlidir.



### Mütəxəssis açıqladı

Təbii meyvə şirələrini də həddindən artıq qəbul etmək faydalı hesab olunmur. Ümumiyyətlə, meyvələri meyvə şəklində qəbul etsələr daha yaxşıdır. Ancaq şirə içmək istəyirlərsə, o zaman üçdə bir stəkan meyvə şirəsi olmalıdır, qalanı su əlavə edərək istehlak etməlidirlər. Duzlu, acı, konservləşdirilmiş qidalardan uzaq dursunlar, kolbasaları, sosiskaları ümumiyyətlə rasionundan çıxarmalıdır. Yağlı qaymaq, xama, mayonez qəbulu faydalı hesab olunmur. Xurma, əncir, banan, yemiş, ərik, şabalıd və bu kimi şirin meyvələrdən də uzaq durmaları tövsiyə olunur. Daha çox çiyələk, zoğal, əzgil, qarağat, albalı, turş alma, armudun turşməzə olanı faydalıdır. Qarpız müəyyən miqdarda, miqdarı keçməmək şərtilə gün ərzində 200-250 qram yeyə bilərlər. Daha çox qara çörəkdən istifadə etmələri faydalıdır. Yeməklərində daha çox qırmızı, yağlı olmayan ət, toyuq və balıqdan istifadə etməlidirlər. Ümumiyyətlə, ətin yağlı hissələrini, dərisini və balığın yağlı hissəsini yeməməli məsləhət görülmür və həftə ərzində 3 dəfə yumurta yeməlləri faydalı hesab oluna bilər".

*Ayşən Vəli*

## Dünya ulduzu Aleyna

**Dünya ulduzu olmaq yolunda olan müğənni Aleyna Tilki ilk addımını "Retrograde" adlı mahnı ilə atıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, məşhur amerikalı DJ və prodüser Dillon Francisin yeni albomunda oxuduğu "Real Love" mahnısı ilə gündəmdədir. Aleyna Tilki tərəfindən oxunan "Real Love" ilə on minlərlə insanı rəqs etdirdi.**



*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**